# ELM

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin orqanı

Qüvvət elmdədir...

Nizami Gəncəvi

НАУКА

Орган Президиума Национальной академии наук Азербайджана

SCIENCE

Newspaper of the Presidium of the Azerbaijan National Academy of Sciences

№ 39 (1479) ❖ Cümə, 5 dekabr 2025-ci il ❖ Qəzet 1984-cü ildən nəşr olunur




# Prezident İlham Əliyev "AZWOOL" mineral daş yunu zavodunun açılışında iştirak edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 27-də Bakının Qaradağ rayonunda "Matanat-A" şirkətinin "AZWOOL" mineral daş yunu zavodunun açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, iqtisadiyyat naziri Mikayıl Cabbarov və "Matanat-A" şirkətinin Müşahidə Şurasının sədri Elxan Bəşirov dövlətimizin başçısına zavodun fəaliyyəti barədə məlumat verdilər.

Prezident İlham Əliyevə əvvəlcə əsası 2000-ci ildə qoyulan "Matanat-A" şirkəti barədə məlumat verildi. İnşaat materiallarının istehsalı sektorunda 25 ildir fəaliyyət göstərən şirkətin tərkibinə "Matanat-A" Quru İnşaat Qarışıqları, AĞDAĞ gips-karton və gipsəsaslı məhsulların istehsalı, AZERLİME Əhəng, avadanlıq və dəzgahların istehsalı və ELBERG maşınqayırma zavodları daxildir. Şirkətin müəssisələrində ümumilikdə 1000-ə yaxın iş yeri yaradılıb.

Ərazisi 10 hektar olan "AZWOOL" mineral daş yunu zavodunda ABŞ, Almaniya və Türkiyədə istehsal edilən müasir avadanlıqlar quraşdırılıb. Zavodun illik istehsal gücü 1,5 milyon kubmetr mineral daş yunudur. Müəssisədə məhsullar əsasən yerli xammaldan hazırlanır.

Mineral daş yunu zavodunun investisiya dəyəri 43 milyon manatdır. Layihənin reallaşdırılması üçün İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 10 milyon manat güzəştli kredit ayrılıb. Bununla yanaşı, müəssisə investisiya təşviqi sənədi ilə texnika, texnoloji avadanlıq və qurğuların idxalı zamanı təxminən 4 milyon manat güzəşt əldə edib. Zavodda 180 iş yeri yaradılıb.

Tikinti sektorunda istifadə olunan, ekoloji cəhətdən təmiz mineral daş yunu istilik və səs izolyasiyasını təmin etməklə yanaşı, enerjiyə qənaətə imkan yaradır. Mineral daş yunu Azərbaycanda rəqabət üstünlüyünə malik yerli məhsullardan biridir. Ona daxili və xarici bazarda böyük tələbat var. Zavodun açılışı yerli istehsalın təşviqi, daxili bazarın tələbatının ödənilməsi və xarici bazarda Azərbaycan məhsullarının rəqabət qabiliyyətinin artırılmasına xidmət edəcək. Müəssisə ölkəmizin mineral daş yununa tələbatını ödəməklə yanaşı, idxaldan asılılığı əhəmiyyətli dərəcədə azaldacaq. Həmçinin burada istehsal olunan məhsullar Gürcüstana, MDB və Yaxın Şərq ölkələrinə ixrac ediləcək.

Prezident İlham Əliyev "Matanat-A" şirkətinin müəssisələrində istehsal edilən məhsullarla da tanış oldu. Bildirildi ki, şirkətin zavodlarında 200-dən artıq ticarət markası ilə 3 mindən çox çeşiddə məhsul istehsal edilir. Məhsullar daxili tələbatı ödəməklə yanaşı, "Made in Azerbaijan" brendi ilə Qazaxıstan, Gürcüstan, İraq, Ukrayna, Özbəkistan və digər xarici ölkələrə ixrac olunur.

Dövlətimizin başçısı zavodu işə saldı.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə qeyri-neft sektorunun şaxələndirilməsi və inkişafı istiqamətində aparılan işlər nəticəsində ölkəmizdə yeni-yeni istehsal sahələri yaradılır. Bütün bunlar isə, eyni zamanda, yeni iş yerlərinin açılmasına, əhalinin məşğulluğunun artırılmasına böyük töhfə verir.

# Ümummilli Lider Heydər Əliyevin ictimai görüşlərində gender amili



**Dekabrın 3-də AMEA-nın Əsas binasında "Ümummilli Lider Heydər Əliyevin ictimai görüşlərində gender amili" mövzusunda dəyirmi masa keçirilib.**

Tədbiri giriş sözü ilə açan AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Ulu Öndər Heydər Əliyevin xatirəsinin həm ölkəmizdə, həm də onun hüdudlarından kənarda dərin hörmət və ehtiramla yad edildiyini bildirərək, Ümummilli Liderin müstəqil dövlətimizin hərtərəfli inkişafı yolundakı əvəzsiz tarixi xidmətlərindən danışıb. Vurğulayıb ki, dünyanın nadir şəxsiyyətlərindən biri olan Heydər Əliyev öz müstəsna xidmətləri ilə xalqın qəlbinə və tarixin yaddaşına əbədi həkk olunub.

"Azərbaycanın müstəqil dövlət kimi möhkəmlənməsində və tanıdılmasında, dünyada söz sahibi olan ölkələrdən birinə çevrilməsində Ulu Öndərin böyük rolu olub", - deyən akademik İsa Həbibbəyli Ümummilli Liderin keçdiyi yolun, qazandığı təcrübənin, apardığı mübarizənin, əldə etdiyi nəticələrin və çatdığı mərhələlərin həm də dünya xalqları üçün bir nümunə, örnək olduğunu bildirib. Qeyd edib ki, Ulu Öndər Heydər Əliyev dünyaya müstəqil dövlətçilik dərslərinin təlimini təqdim edib. Dahi liderin dövlətçilik təlimi öz ölkəsini bugünlərə gətirib çatdıran böyük siyasi təlimdir, əbədiyaşardır və uzunömürlüdür.

Ümummilli Lider Heydər Əliyevin müstəqilliyimizi əbədiləşdirən, müstəqil dövlətimizi qüdrətləndirən tarixi şəxsiyyət olduğunu söyləyən AMEA rəhbəri onun müstəqil və demokratik Azərbaycan uğrunda apardığı mübarizəsindən, respublikanın ağır faciələrdən, siyasi, sosial-iqtisadi və mənəvi-psixoloji böhrandan qurtuluşu naminə üzərinə götürdüyü xilaskarlıq missiyasından bəhs edib. Vurğulayıb ki, Ümummilli Lider Azərbaycan dövlətini zamanın çətin sınaqlarından məharətlə çıxarıb, ən mürəkkəb vəziyyətlərdə yalnız xalqına arxalanıb, həlledici anlarda böyük liderlik göstərərək Azərbaycanı inamla irəliyə aparıb. Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə xalqımıza ləyaqətlə xidmət edib, bütün güc və bacarığını Azərbaycan xalqının rifahına və milli dövlətçilik ideyalarının gerçəkləşdirilməsinə yönəldib. AMEA rəhbəri bildirib ki, Heydər Əliyev ideyaları, dövlətçilik kursu bu gün də yaşayır, müstəqil Azərbaycan dövlətinin inkişafına, möhkəmlənməsinə xidmət edir və dünyaya müstəqil dövlət olmağın nümunələrini təqdim edir.

"Heydər Əliyev-xalq birliyi Azərbaycanın dövlət müstəqilliyini çətin imtahanlardan keçirib, müstəqilliyimizin möhkəm təməlləri qoyulub. Dahi lider Azərbaycanın müstəqilliyini əbədi və dönməz edib. Bu gün biz tam müstəqil, dinamik inkişaf edən, dünyada sayılıb-seçilən ölkədə yaşadığımıza görə xalqımızın böyük oğlu Heydər Əliyevə əbədi borcluyuq", - deyə akademik İsa Həbibbəyli əlavə edib.

AMEA rəhbəri Ulu Öndərin müstəqilliyimizin qorunub saxlanması və möhkəmləndirilməsi istiqamətində yorulmaz səylərinin hazırda onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini və müasir çağırışlara uyğun olaraq inkişaf etdirildiyini söyləyib. Bildirib ki, Heydər Əliyevin müəyyənləşdirdiyi uğurlu xarici siyasət nəticəsində Azərbaycan dünyada layiqli yerini tutub, beynəlxalq arenada etibarlı tərəfdaş kimi tanınıb.

O, 2020-ci ildə Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun torpaqlarımızı düşmən işğalından qurtararaq ərazi bütövlüyümüzü bərpa etdiyini deyib. Qeyd edib ki, xalqımızın Müzəffər Ali Baş Komandanın ətrafında "Dəmir yumruq" kimi sıx birləşməsi nəticəsində 30 illik işğala son qoyulub, Azərbaycanın dövlət suverenliyi və ərazi bütövlüyü tam bərpa edilib. Bu tarixi Qələbə həm də Ulu Öndər Heydər Əliyevin Azərbaycanla bağlı ən böyük arzusunun həyata keçdiyinin təsdiqi olub.

Akademik İsa Həbibbəyli bu gün Azərbaycanın bütün ərazilərində Dövlət Bayrağının qürurla dalğalandığını vurğulayıb. Alim ölkəmizdə Böyük Qayıdış hərəkatının uğurla həyata keçirildiyini, Azərbaycanın bütün yönləri ilə inkişaf etdiyini, dünyada nümunəvi inkişaf modelinə və milli tərəqqi yoluna malik dövlət kimi tanındığını bildirib.

AMEA rəhbəri Ümummilli Lider Heydər Əliyevin zəngin həyat yolu və siyasi fəaliyyətinin yeni nəsillərə çatdırılmasının önəmini qeyd edib. O, Heydər Əliyevin böyük Sovet imperiyasının ən nüfuzlu liderlərindən biri, İlham Əliyevin isə yeni dünyanın qüdrətli liderlərindən biri olduğunu söyləyib.

Ulu Öndər Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi hər iki dövrdə AMEA-nın inkişafını diqqət mərkəzində saxladığını deyən akademik İsa Həbibbəyli Akademiyanın 80 illik yubiley tədbirlərinin ən parlaq zirvəsinin Prezident İlham Əliyevin 3 noyabr 2025-ci il tarixində Akademiyanın yığıncağında iştirakı və dərin məzmunlu nitqlə çıxışı olduğunu bildirib. Qeyd edib ki, dövlət başçısının yubiley yığıncağında iştirakı və tarixi nitqi Azərbaycan aliminə, elminə, ziyalısına və Milli Elmlər Akademiyasına dövlət səviyyəsində diqqətin ifadəsidir.

Sonra Ulu Öndər Heydər Əliyevə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Tədbirdə AMEA-nın vitse-prezidenti akademik İradə Hüseynova çıxış edərək Heydər Əliyevin həyat yolu və dövlətçilik irsinin təkcə müstəqil, suveren və demokratik Azərbaycan Respublikasının qurucuTuluğu ilə deyil, həm də ölkəmizdə hüquqi, sosial və gender bərabərliyi prinsiplərinin formalaşması ilə sıx bağlı olduğunu bildirib. Vurğulayıb ki, müasir dövlətçiliyimizin əsasını təşkil edən milli müstəqillik, suverenlik, demokratik konstitusiya quruluşu və hüquqları Ulu Öndərin strateji baxışları və qətiyyəti nəticəsində real məzmun kəsb edib.

"Ulu Öndərin dövlət siyasətinin mühüm istiqamətlərindən biri qadınların cəmiyyət və dövlət idarəçiliyində, elm və təhsildə rolunun genişləndirilməsi olmuşdur", - deyən akademik İradə Hüseynova qeyd edib ki, dahi lider qadın hüquqlarını demokratik dövlət quruculuğunun əsas komponentlərindən biri hesab edib. Bu baxış Heydər Əliyevin həm sovet dövründəki rəhbərliyi zamanı, həm də müstəqillik illərində həyata keçirdiyi siyasətdə aydın görünüb. Ulu Öndərin qəbul etdiyi "Azərbaycanda qadınların rolunun artırılması haqqında" Sərəncam, eləcə də 2000-ci ildə təsdiq edilən "Qadın Problemləri üzrə Milli Fəaliyyət Planı" gender bərabərliyini ölkənin hüquqi və sosial inkişafının ayrılmaz tərkib hissəsinə çevirib.

Onun sözlərinə görə, Şərqdə ilk demokratik respublikanın qurulması, gender bərabərliyi ilə bağlı konstitusiya hüquqlarının təsbit olunması, qadınlara ilk dəfə seçmək və seçilmək hüququnun verilməsi ilə fərqlənən Azərbaycan qadın və qızların elmdə iştirakı üzrə də bir çox göstəricilərə görə dünyanın inkişaf etmiş ölkələri ilə müqayisə edilə bilər.

Akademik İradə Hüseynova əlavə edib ki, bu gün qadınlarımız elmdə, təhsildə, dövlət idarəçiliyində, iqtisadiyyatın müxtəlif sahələrində fəal iştirak edir, ölkənin intellektual və innovativ inkişafına ciddi töhfələr verirlər. Ulu Öndərin siyasi və sosial iqtisadi irsinin layiqli davamçısı Prezident İlham Əliyev müasir mərhələdə gender siyasətinə strateji yanaşmanı inkişaf etdirib, qadınların ictimai-siyasi fəallığının genişlənməsi üçün yeni imkanlar yaradıb. Bu istiqamətdə həyata keçirilən dövlət proqramları və institusional islahatlar müasir Azərbaycan cəmiyyətində qadınların iştirakını daha yüksək səviyyəyə qaldırır.

"Ulu Öndərin Azərbaycan qadınına verdiyi yüksək dəyər və etimad, onun hüquqlarının və sosial statusunun möhkəmləndirilməsi üçün gördüyü işlər bu gün də ölkəmizin elmi, ictimai və siyasi həyatında öz real nəticələrini göstərməkdədir. Biz AMEA-da bu siyasətin davamlılığını təmin etməyi, elm sahəsində qadınların aktivliyini daha da genişləndirməyi, onların liderlik potensialına dəstək göstərməyi özümüz üçün vacib prioritet hesab edirik", - deyə vitse-prezident çıxışını tamamlayıb.

Daha sonra çıxış edən AMEA Qadınlar Şurasının sədri professor Rəna Mirzəzadə bildirib ki, bu gün Azərbaycanda uğurlu gender siyasəti həyata keçirilir. Ölkəmizdə gender məsələləri Ulu Öndər Heydər Əliyevin hər zaman diqqət mərkəzində olub, onun hakimiyyətinin bütün dövrlərində kişi və qadınların siyasətdə və hakimiyyətdə bərabər iştirakına zəmin yaradılıb. Məhz dahi liderin Fərmanı ilə 1998-ci ildə Qadın Problemləri üzrə Dövlət Komitəsinin yaradılması, 2000-ci ildə dövlət qadın siyasəti ilə bağlı Fərmanın imzalanması bu sahəyə xüsusi diqqətin ifadəsidir.

Tədbirdə, həmçinin AMEA-nın vitse-prezidenti akademik Gövhər Baxşəliyevanın "Heydər Əliyev müasir Azərbaycan dövlətinin banisidir", İctimai Elmlər Bölməsinin Elmi Şurasının sədr müavini akademik Nərgiz Axundovanın "Heydər Əliyev Azərbaycan tarixinin Böyük Lideridir", Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri fəlsəfə elmləri doktoru, dosent Xatirə Quliyevanın "XX əsr Azərbaycan dahisi Ulu Öndər Heydər Əliyev", YAP Veteranlar Şurasının üzvü, AMEA-nın Qadınlar Şurasının İdarə Heyətinin üzvü, hakim-ictimaiyyətçi Zərifə Quliyevanın "Heydər Əliyev əbədi yaddaşlarda" və Fəlsəfə və Sosiologiya İnstitutunun elmi işçisi Gülşən Allahverdiyevanın "Heydər Əliyevin xatirəsinə həsr edilmiş şeir" adlı məruzələri dinlənilib.

# "İRS" seriyası çərçivəsində yeni kitabların təqdimatı

**"İRS" ("Naslediye") seriyası çərçivəsində "Tükənməz xəzinə" və "Azərbaycan: yeni era" adlı yeni kitabların təqdimatı olub. Hər iki nəşr Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin və "PAŞA Həyat" ASC-nin dəstəyi ilə çap edilib.**

Tədbir Azərbaycanın Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Təqdimatda çıxış edən "İRS" jurnalının baş redaktoru Musa Mərcanlı bildirib ki, layihə çərçivəsində çap olunan kitabların sayı artıq otuzu keçib. Onun sözlərinə görə, bu nəşrlərin hamısı yüksək poliqrafik keyfiyyəti, məzmunu və dili ilə seçilir və bu da onların Azərbaycanı beynəlxalq arenada layiqincə təmsil etməsinə imkan yaradır.

"Azərbaycan: yeni era" kitabından danışan baş redaktor vurğulayıb ki, nəşrdə ölkəmizin son 25-30 ildə əldə etdiyi nailiyyətlər sistemli şəkildə əks olunub. Kitabda Azərbaycanın bu gün hansı siyasi və iqtisadi reallıqda yaşadığı, müstəqillik illərində ölkədə hansı şəraitin formalaşdığı ətraflı göstərilir.

Ayrıca qeyd olunub ki, kitabın əsas bölmələrindən birində Azərbaycan ərazilərinin işğaldan azad olunması və həmin torpaqlarda genişmiqyaslı bərpa və quruculuq işlərinin başlanması haqqında söhbət açılır.



"PAŞA Həyat" ASC-nin İdarə Heyətinin sədri Ülviyyə Cabbarova bildirib ki, bu kimi layihələrin dəstəklənməsi şirkət üçün təkcə böyük qürur mənbəyi deyil, həm də mənəvi məsuliyyətin vacib bir hissəsidir. Onun sözlərinə görə, belə kitabların nəşrinə dəstək göstərmək və onların işıq üzü görməsinə töhfə verməklə "PAŞA Həyat" Azərbaycanın tarixinə və zəngin keçmişinə hörmət nümayiş etdirir, həmçinin gələcək nəsillər qarşısında mənəvi borcunu yerinə yetirir.

O qeyd edib ki, bu nəşrlərin bir neçə dildə çap olunması xüsusilə əhəmiyyətlidir. Bu, Azərbaycanın tarixini və mədəniyyətini xaricdə təqdim etmək və onu geniş beynəlxalq auditoriyaya çatdırmaq üçün unikal imkan yaradır. Ü.Cabbarova Mədəniyyət Nazirliyinə göstərilən dəstəyə görə dərin minnətdarlığını bildirib, həmçinin "İRS" nəşriyyat evini, rəhbərliyi və bütün kollektivi təbrik edərək onlara mühüm və nəcib fəaliyyətlərində uğurlar arzulayıb.



Təqdimatda çıxış edən Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli bildirib ki, "Azərbaycan: yeni era" kitabı təkcə mühüm elmi əsər kimi deyil, həm də Azərbaycanın suverenliyi və müstəqil dövlətçiliyinə hörmətin ifadəsi kimi qiymətləndirilməlidir. O vurğulayıb ki, nəşr ölkənin müstəqillik dövründə keçdiyi yolu, əldə etdiyi nailiyyətləri, həmçinin Qarabağdakı tarixi Qələbəni və Böyük Qayıdış proseslərini əks etdirir.

Azərbaycanın mədəniyyət nazirinin müavini Fərid Cəfərovun sözlərinə görə, bu il "İRS" nəşriyyat evinin Azərbaycan mədəniyyətinə həsr olunan nəşrləri Vyana və Frankfurt kitab yarmarkalarında təqdim edilib. O əminliklə bildirib ki, bu gün təqdimatı keçirilən kitablar da yaxın illərdə beynəlxalq sərgi və elmi forumlarda layiqli yer tutacaq, Azərbaycan irsinin dünyada tanıdılması və mədəni diplomatiyanın gücləndirilməsi üçün mühüm vasitələrə çevriləcək.

Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev və Milli Məclisin deputatı Rizvan Nəbiyev də təqdim edilən nəşrlərin xüsusi əhəmiyyətini və onların ölkənin elmi və mədəni mühitinə verdiyi töhfəsini vurğulayaraq, kitabların hazırlanması və çapı üzrə görülən yüksəkkeyfiyyətli işi yüksək qiymətləndiriblər.

# Azərbaycanda elmi nəşrlərin beynəlxalq elmmetrik meyarlara uyğunlaşdırılması: "Redaktorluq məktəbi"

**Dekabrın 3-də AMEA-nın Rəyasət Heyətində Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) Əmək və Sosial Münasibətlər Akademiyasının (AƏSMA) Davamlı İdentifikatorların Təminatına Dəstək Mərkəzinin "Azərbaycanda elmi nəşrlərin beynəlxalq elmmetrik meyarlara uyğunlaşdırılması: "Redaktorluq məktəbi" layihəsinin təqdimatı keçirilib.**



Tədbirdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, AMEA Rəyasət Heyətinin üzvləri, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədrinin müavini Musa Mirzəyev, Əmək və Sosial Münasibətlər Akademiyasının Beynəlxalq əlaqələr üzrə prorektoru Xəyalə Məmmədova, AMEA Rəyasət Heyəti aparatının şöbə müdirləri, AMEA-nın elmi müəssisə və təşkilatlarının direktorları və aidiyyəti şəxslər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan akademik İsa Həbibbəyli AMEA ilə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası arasında uzun illərdir qarşılıqlı etimada əsaslanan sıx əməkdaşlıq əlaqələrinin mövcud olduğunu bildirib. Qeyd edib ki, bugünkü tədbir də bu əməkdaşlıq münasibətlərinə söykənir və gələcək birgə fəaliyyətimiz üçün olduqca əhəmiyyətlidir.

Prezident İlham Əliyevin son illərdə ölkəmizdə süni intellekt və rəqəmsal inkişafın təmin edilməsi istiqamətində bir sıra ardıcıl olaraq, Fərman və sərəncamlar imzaladığını deyən akademik İsa Həbibbəyli ölkə başçısının AMEA-nın 80 illik yubiley yığıncağındakı nitqində də bu məsələlərə toxunduğunu, Azərbaycanın gələcəyini bu istiqamətdə gördüyünü və bundan irəli gələrək alimlərimiz qarşısında bir sıra vəzifələr qoyduğunu diqqətə çatdırıb.

Son illərdə AMEA-da elektron xidmətlərin genişləndirilməsi istiqamətində görülən işləri diqqətə çatdıran akademik İsa Həbibbəyli 2023-cü ilin yanvar ayında AMEA Rəyasət Heyəti aparatında "Elektron Akademiya" şöbəsinin yaradıldığını, qısa müddətdə bir sıra mühüm uğurlar əldə edildiyini, 2025-ci ildə isə müasir dövrün çağırışlarından və yeni texnoloji reallıqlardan irəli gələrək şöbənin adının Rəqəmsal Akademiya, Süni intellekt və Elektron xidmətlər şöbəsi olaraq dəyişdirildiyini söyləyib.







Akademik İsa Həbibbəyli bildirib ki, şöbə ötən dövr ərzində AMEA-da rəqəmsallaşma, süni intellekt texnologiyalarının tətbiqi, elektron xidmətlərin genişlənməsi istiqamətində bir çox yeniliklərə və uğurlara imza atıb.

Belə ki, AMEA-nın elmi müəssisə və təşkilatlarında işıq üzü görən nəşrlərin nüfuzlu beynəlxalq elmmetrik bazalara daxil olunmasını təşviq etmək məqsədilə onların elektron resursları hazırlanıb, "Crossref"lə əməkdaşlıq çərçivəsində hər bir məqaləyə bu günə kimi ANAS adı altında 2800-ə yaxın DOİ identifikatoru verilib. Bundan əlavə, Türkiyənin TÜBİTAK ULAKBİM DergiParkı ilə əməkdaşlıq çərçivəsində AMEA-nın özünün Dərgi Park bazası yaradılıb. Həmçinin AMEA Dərgi Parkına daxil olan "Azərbaycan Riyaziyyat Jurnalı", "Müqayisəli ədəbiyyatşünaslıq" və "Azərbaycan ərazisində seysmoproqnoz müşahidələri" jurnalları Türkiyənin TÜBİTAK ULAKBİM DergiPark sisteminə qəbul edilib. AMEA-da elmmetrik göstəricilərin qiymətləndirilməsi məqsədilə milli istinad sistemi qurulub.

Akademik İsa Həbibbəyli qeyd edib ki, görülən işlər Azərbaycan elmini dünya elmi ilə rəqabət apara biləcək səviyyəyə yüksəltmək məqsədi daşıyır və süni intellekt, rəqəmsal texnologiyaların inkişafı istiqamətində proses bundan sonra da davam edəcək.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası sədrinin müavini Musa Mirzəyev çıxış edərək AHİK sədri adından tədbir iştirakçılarını salamlayıb. O qeyd edib ki, Azərbaycan alimləri tarixən öz ixtiraları, elmi yenilikləri ilə dövlətimizin inkişafına töhfələrini veriblər və bu gün də Azərbaycan elmini beynəlxalq arenada layiqincə təmsil edirlər. Diqqətə çatdırıb ki, həm Ulu Öndər Heydər Əliyev, həm də Prezident İlham Əliyev hər zaman elmimizə, alimlərimizə diqqət göstərib, elmin inkişafına xidmət edən Qanun, Fərman və sərəncamlar imzalayıblar.

Musa Mirzəyev Həmkarlar İttifaqları Konfederasiyasının Azərbaycan alimlərinin müalicə və istirahətlərinin səmərəli təşkili məsələsində daim onlara dəstək verdiklərini söyləyib. Həmçinin AHİK-in Əmək və Sosial Münasibətlər Akademiyasının ötən 19 illik fəaliyyəti dövründə yetişdirdiyi kadrlarla ölkəmizdə əmək bazarının formalaşdırılması işinə layiqli töhfə verdiyini bildirib. Qeyd edib ki, bu gün təqdim edilən layihənin əsas məqsədi elmi nəşrlərin elmi informasiya mübadiləsini həyata keçirmək, onların beynəlxalq elmi bazalara çıxış imkanlarını genişləndirməkdir.

Sonra Əmək və Sosial Münasibətlər Akademiyasının Beynəlxalq əlaqələr üzrə prorektoru Xəyalə Məmmədova "Azərbaycanda elmi nəşrlərin beynəlxalq elmmetrik meyarlara uyğunlaşdırılması: "Redaktorluq məktəbi" layihəsini təqdim edib. Bildirib ki, layihə ölkəmizdə elmi nəşrlərin keyfiyyətinin artırılması və elmi nəşrlərin beynəlxalq standartlara uyğun identifikasiya ilə təmini baxımından olduqca önəmlidir.

Xəyalə Məmmədova daha sonra Davamlı İdentifikatorların Təminatına Dəstək Mərkəzi və həyata keçirilən layihə ilə bağlı təqdimatla çıxış edib, iştirakçıların suallarını cavablandırıb.

Sonda AMEA-nın vitse-prezidenti akademik Rasim Əliquliyev, AMEA Rəyasət Heyəti aparatının Rəqəmsal akademiya, süni intellekt və elektron xidmətlər şöbəsinin müdiri riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Fariz İmranov və AMEA-nın "Elm" nəşriyyatının direktoru filologiya üzrə fəlsəfə doktoru Səbuhi Qəhrəmanov çıxış edərək süni intellekt və rəqəmsal inkişaf istiqamətində görülən işlər, eləcə də təqdimat ətrafında fikirlərini bildiriblər.

# Akademik İsa Həbibbəyli çinli tələbələrə Azərbaycan ədəbiyyatından mühazirə oxuyub





**AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli Azərbaycanda təkmilləşmə dərslərində iştirak edən Pekin Xarici Dillər Universitetinin Azərbaycan dili ixtisası üzrə təhsil alan tələbələri ilə görüşüb.**

Mərkəzi Elmi Kitabxanada təşkil olunan görüşdən əvvəl Akademiya rəhbərliyi və tələbələr MEK-in foyesində Ümummilli Lider Heydər Əliyevin büstü önünə gül dəstələri qoyub, Ulu öndərin xatirəsini ehtiramla yad ediblər.

Sonra çinli tələbələr Kitabxananın sərgi zalı ilə tanış olub, burada nümayiş etdirilən AMEA əməkdaşlarının müəllifi olduğu təsviri sənət nümunələrinə baxıblar. Tələbələr Ümummilli Lider Heydər Əliyev, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya həsr olunmuş guşələr, eyni zamanda Qarabağ müharibəsi qəhrəmanları fondu və AMEA təsisçilərinin büstləri ilə tanış olublar.

Akademik İsa Həbibbəyli tələbələrə tanış olduqları guşələr və ekspozisiyalar barədə ətraflı məlumat verib. Xüsusilə AMEA-nın təsisçilərinin elmi irsi, akademiyanın formalaşmasındakı rolu və Azərbaycan elminin inkişafındakı xidmətlərindən danışıb.

Ölkə Prezidenti İlham Əliyevin iştirakı ilə noyabrın 3-də keçirilən AMEA-nın 80 illik yubiley yığıncağı barədə məlumat verən AMEA rəhbəri bu mötəbər tədbirdə Çin alimlərinin də iştirak etdiyini, iki ölkə arasında elmi əməkdaşlığın yeni inkişaf mərhələsinə qədəm qoyulduğunu xüsusi vurğulayıb. Azərbaycan və Çin arasında uzun illərdir formalaşmış strateji tərəfdaşlığın elmi-mədəni sferada da öz bəhrəsini verdiyini deyən akademik İsa Həbibbəyli bu sahədə Pekin Xarici Dillər Universitetinin müəllimi, filologiya üzrə fəlsəfə doktoru Aqşin Əliyevin fəaliyyətini yüksək qiymətləndirib.

Görüşün davamında akademik İsa Həbibbəyli çinli tələbələrə "Azərbaycan ədəbiyyatında ədəbi cərəyanlar" mövzusunda mühazirə keçib.

Akademik Azərbaycan ədəbiyyatında ədəbi cərəyanların tarixi inkişaf mərhələlərini ardıcıllıqla diqqətə çatdırıb. Bildirib ki, müxtəlif dövrlərdə meydana çıxan ədəbi cərəyanlar xalqın ictimai şüurunun formalaşmasında mühüm rol oynayıb və milli-mənəvi dəyərlərin qorunub gələcək nəsillərə çatdırılmasına xidmət edib.

Alim, xüsusilə XIX əsrin sonu və XX əsrin əvvəllərində inkişaf edən tənqidi realizm və romantizm cərəyanlarını ətraflı şəkildə şərh edib. Qeyd edib ki, tənqidi realizm nümayəndələri cəmiyyətdəki sosial ədalətsizlikləri açıq şəkildə tənqid etməklə, xalqın maariflənməsinə və sosial düşüncənin oyanmasına təkan veriblər. Romantizm ədəbi cərəyanı isə ədəbiyyatda azadlıq ideyalarının, mənəvi saflığın və yüksək insani dəyərlərin formalaşmasına şərait yaradıb.

Akademik İsa Həbibbəyli Azərbaycanda dekadentizm, neorealizm, modernizm, magik realizm və postmodernizm ədəbi cərəyanlarının tarixi inkişafı, əsas xüsusiyyətləri və Azərbaycan ədəbiyyatına təsirlərindən bəhs edib. Hər bir cərəyanın xüsusiyyətlərini nümunələrlə izah edərək, onların ədəbi yaradıcılıqda ifadə etdiyi ideya və dəyərləri diqqətə çatdırıb.

Mühazirə böyük maraqla qarşılanıb, AMEA rəhbəri tələbələrin suallarını ətraflı şəkildə cavablandırıb.

Daha sonra akademik İsa Həbibbəyli tələbələrə AMEA-da nəşr olunan monoqrafiyalar, həmçinin müəllifi olduğu kitablar, eləcə də bədii əsərlər hədiyyə edib və birgə xatirə şəkli çəkdirilib.

Çinli tələbələr AMEA Rəyasət Heyəti aparatının inzibati binası ilə də tanış olub, binanın tarixi, memarlıq xüsusiyyətləri və Akademiyada aparılan elmi-təşkilati işlər barədə məlumat alıblar.

Sonda tələbələr görüşün və Azərbaycan ədəbiyyatına aid xüsusi mühazirənin səmimi mühitdə təşkilinə və əhatəli mühazirəyə görə akademik İsa Həbibbəyliyə dərin minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, Pekin Xarici Dillər Universitetinin Azərbaycan dili ixtisası üzrə təhsil alan tələbələri hazırda müvafiq olaraq Xəzər Universiteti və Bakı Dövlət Universitetində üçüncü kursun təkmilləşmə dərslərində iştirak edirlər.

# Prezident İlham Əliyevin AMEA-nın 80 illik yubileyindəki çıxışına həsr olunmuş dəyirmi masa

**Dekabrın 3-də Sosial Tədqiqatlar Mərkəzində (STM) Prezident İlham Əliyevin Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) 80 illik yubileyindəki çıxışına həsr olunmuş "Sosial və siyasi elmlər müasir çağırışlar qarşısında: beyin mərkəzləri, akademik elm və universitetlərin vəzifələri" mövzusunda dəyirmi masa keçirilib.**



Tdbirdə Milli Məclisin İnsan hüquqları komitəsinin və Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri Zahid Oruc çıxış edib. O bildirib ki, Prezident İlham Əliyevin yubiley mərasimindəki çıxışı Vətən müharibəsində Qələbənin beşinci ildönümü ilə bağlı qalibiyyət ruhunu alimlərlə bölüşmək və elmi hədəflərə yönəltmək məqsədini daşıyıb. Prezident çıxışında Azərbaycan dilinin qorunmasının vacibliyi, tarixi və mədəni irsin təbliği, süni intellekt, kibertəhlükəsizlik, sənaye və hərbi sənayenin inkişafı, bərpaolunan enerji və geoloji kəşfiyyat sahələrinə diqqət çəkilib. Dövlətimizin başçısı, həmçinin tariximizin elmi əsaslarla öyrənilməsi və toponimlərin qorunmasının əhəmiyyətini qeyd edib.

Daha sonra Milli Məclisin Elm və Təhsil Komitəsinin sədri Anar İsgəndərov, AMEA-nın vitse-prezidenti Rasim Əliquliyev, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin rəhbəri Vüsal Qasımlı, Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin rəhbəri Fərhad Məmmədov, ADA Universitetinin Dövlət idarəçiliyi və akademik məsələlər üzrə prorektorun müavini Anar Vəliyev, Təhsil Problemləri İnstitutunun direktor müavini Fuad Çıraqov, UNEC-in Elm Populyarlaşdırılması Mərkəzinin rəhbəri Etibar Əliyev, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Hüquq kafedrasının müdiri, professor İsaxan Vəliyev və digər ekspertlər çıxış ediblər.

Vurğulanıb ki, elmi fəaliyyət gənc tədqiqatçılar üçün həm bilik mənbəyi, həm də milli inkişafın aparıcı dayağıdır. Prezident İlham Əliyevin alimlərə ünvanlanan çıxışı bütün tədqiqatçılar üçün daimi istinad nöqtəsi olmalıdır.

Çıxışlarda elmin inkişafı, təhsil inteqrasiyası, beyin mərkəzlərinin rolu, qlobal təhlükəsizlik çağırışları, dövlət idarəçiliyinin akademik əsasları və yeni tədqiqat istiqamətləri kimi mövzular geniş müzakirə olunub.

Tədbir ekspert müzakirələri və sual-cavab sessiyası ilə davam edib.

# "Azərbaycan Milli Elmlər Akademiyası: tanıtma kitabı" çapdan çıxıb

**Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəylinin ideya müəllifliyi ilə AMEA-nın 80 illik yubileyinə həsr olunmuş "Azərbaycan Milli Elmlər Akademiyası: tanıtma kitabı" işıq üzü görüb.**




Kitab Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan elminin dövlətçilik və milli ideologiya üçün strateji əhəmiyyətini vurğulayan fikirləri ilə başlayır.

Kitabda AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin müəllifi olduğu "Ön söz" yer alır.

Nəşrdə AMEA-nın yaranma tarixi, təsisçiləri, keçdiyi inkişaf yolu, Akademiyanın müxtəlif bölmələri və institutlarının fəaliyyət istiqamətləri geniş şəkildə təqdim olunur.

Həmçinin kitabda Akademiyanın Rəyasət Heyəti Aparatının şöbələri, elmi müəssisə və təşkilatları, regional elmi bölmə və mərkəzləri, ictimai qurumların fəaliyyət istiqamətləri, əlaqə məlumatları, elmi nəşrləri, təşkilati strukturları və s. vahid kataloq formatında təqdim edilib.

Nəşrdə AMEA-nın fəaliyyətini vizual şəkildə təqdim edən fotoşəkillər və təsviri məlumatlar da əks olunub.

Nəşrin tərtibçi-müəllifləri AMEA Rəyasət Heyəti Aparatı Elm və təhsil şöbəsinin müdiri, filologiya elmləri doktoru Sərxan Xavəri və həmin şöbənin baş mütəxəssisi Aynur Günəşlidir.

Naşir AMEA-nın "Elm" Nəşriyyatının direktoru, filologiya üzrə fəlsəfə doktoru Səbuhi Qəhrəmanov, dizayner isə nəşriyyatın əməkdaşı Şəlalə Rüstəmovadır.

# Prezident İlham Əliyevin AMEA-nın yubiley yığıncağındakı nitqindən irəli gələrək Yer Elmləri Bölməsinin qarşısında duran vəzifələr müzakirə olunub

**AMEA-nın Yer Elmləri Bölməsinin növbəti iclası keçirilib.**



AMEA-nın vitse-prezidenti akademik İbrahim Quliyev iclas iştirakçılarını salamlayaraq Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş yığıncaqda Prezident İlham Əliyevin proqram xarakterli çıxışından irəli gələn vəzifələr, Yer Elmləri Bölməsinin və bölmənin əhatə etdiyi elmi müəssisələrin gələcək fəaliyyəti ilə bağlı məsələlər barədə danışıb, yubiley münasibətilə və Azərbaycan elminin inkişafında xidmətlərinə görə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilmiş AMEA-nın müxbir üzvü Qalib Əfəndiyevi və professor Adil Əliyevi, "Şöhrət" ordeni ilə təltif edilmiş akademik Əkpər Feyzullayevi bölmənin üzvləri adından bir daha təbrik edib.

Akademik İbrahim Quliyev bildirib ki, illər əvvəl irəli sürdüyü "Neft kapitalının insan kapitalına çevrilməsi" strateji xəttinin davamlılığı və ardıcıllığını nümayiş etdirən Prezident İlham Əliyev öz çıxışında təbii sərvətlərdən fərqli olaraq intellektual potensialın tükənməz sərvət olduğunu vurğulayıb, rəqabətli insan kapitalının formalaşdırılması, Azərbaycanın intellektual potensialının artırılmasını ölkənin elm ictimaiyyəti, alimlər qarşısında qoyulmuş ən mühüm vəzifələrdən biri hesab edib.

AMEA-nın Yer Elmləri Bölməsinin elmi katibi Sadıx Nəbiyev iclas iştirakçılarını Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş yığıncaqda ölkə başçısının çıxışından irəli gələn vəzifələrə bağlı hazırlanmış təkliflərlə tanış edib. Müzakirələrdə çıxış edən alimlər - AR ETN Geologiya və Geofizika İnstitutunun baş direktoru akademik Akif Əlizadə, akademik Əkpər Feyzullayev, akademik Fəxrəddin Qədirov, AMEA-nın müxbir üzvləri Çingiz Əliyev, Rauf Qardaşov, Qarib Əfəndiyev, Qurban Yetirmişli, Dadaş Hüseynov, ETN Coğrafiya İnstitutunun direktoru coğrafiya üzrə fəlsəfə doktoru Zaur İmrani və başqaları müasir texnologiyalardan, süni intel-lektdən və kosmik peyk təsvirlərindən istifadə etməklə ölkə iqtisadiyyatının ehtiyaclarına yönəlmiş tətbiqi xarakterli fənlərarası elmi məhsulların yaradılmasını nəzərdə tutan tədqiqatların genişləndirilməsi, alimlərin beynəlxalq elmi qrantlarda, layihə və müsabiqələrdə fəal istirak etməsi, - nüfuzlu beynəlxalq elmi jurnallarda çap edilən məqalələrin sayının və keyfiyyətinin artırılması, regionumuz üçün həyati əhəmiyyət daşıyan Xəzərin səviyyəsinin ilbəil azalmasının yaratdığı problemlərin kompleks həll edilməsi, ekologiya və ətraf mühitlə bağlı risklərin azaldılması, ölkənin içməli və suvarma suyuna tələbatının yeni yanaşmaların tətbiqi ilə təhlil olunması və su resurslarından səmərəli istifadə edilməsi, təmiz enerji mənbələrindən istifadənin genisləndirilməsi, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpası, bərpa olunan enerji mənbələrindən istifadənin, "yaşıl" texnologiyaların tətbiqinin genişləndirilməsi və s. taleyüklü məsələlərlə bağlı təkliflərini səsləndiriblər.

Planlasdırılan tədqiqatlar sırasında bərpa olunan enerji mənbələrinin - Günəş, külək, dalğa, geotermal sular, vulkanların enerji potensialının öyrənilməsi, bu mənbələrdən istifadə üsullarının elmi təhlili əsas yerlərdən birini tutur. Prezident İlham Əliyevin Azərbaycan alimlərini bərpaolunan enerji məsələləri ilə bağlı fəal olmağa çağırışına cavab olaraq tədbirlər planına Azərbaycanın bərpa olunan enerji növləri ilə bağlı geniş elektron məlumat bazasının yaradılması, AR ETN Geologiya və Geofizika, Radiasiya Problemləri, Fizika, Coğrafiya institutları tərəfindən geotermal sulardan səmərəli istifadə üzrə təkliflərin hazırlanıb dövlət orqanlarına təqdim edilməsi də nəzərdə tutulur. Mütəxəssislər hesab edirlər ki, ölkəmizin dağlıq ərazilərində, o cümlədən yeni azad edilmiş ərazilərdə çoxsaylı geotermal mənbələrdən iri istixanaların qızdırılması üçün istifadə olunması ölkədən ixrac edilən bəzi kənd təsərrüfatı məhsullarının istehsal həcminin artırılmasına və maya dəyərinin aşağı salınmasına əhəmiyyətli təsir edə bilər.

Prezident İlham Əliyevin Azərbaycan alimlərini Qarabağda və Şərqi Zəngəzurda aparılan böyük geoloji işlərə qoşulmağa dəvət etməsi bu istiqamətdə bir sıra təşəbbüsün formalaşmasına təkan verib. Bölmənin elmi müəssisələri tərəfindən Gəncədə alüminium istehsalı prosesində yaranmış və ekoloji təhlükə mənbəyi olan 21 milyon tona yaxın alunit və boksit tullantılarından, Ordubaddakı Parağaçay molibden yatağının istismar tullantılarından qalıq kobalt, molibden və bəzi nadir yer metallarının əldə edilməsi imkanlarının dərindən araşdırılması təklif edilib, qarşıdakı illərdə strateji əhəmiyyətli faydalı qazıntı yataqlarının proqnozlasdırılması, axtarışı və işlənilməsinin elmi əsaslarının hazırlanması, Azər-baycan ərazisində kobalt və molibdenin, təbii fosforitlərdə, həbelə palçıq vulkanlarında nadir torpaq metalları (lantan, samarium, auropium və s.) təzahürlərinin dəqiq qiymətləndirilməsi planlaşdırılıb.

Prezident İlham Əliyevin AMEA-dakı çıxışında müasir texnologiyalardan, peyk tədqiqatları və zondlamadan istifadə etməklə geoloji kəşfiyyat işlərinin genişləndirilməsinə, xüsusilə bu işlərin Qarabağda və Şərqi Zəngəzurda təşkil olunmasına xüsusi diqqət ayrılıb. Yer Elmləri Bölməsinin alimləri bununla əlaqədar "Azərkosmos" agentliyi, AR ETSN Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi və digər dövlət orqanları ilə birgə Qarabağda və Şərqi Zəngəzurda artıq öyrənilmiş və istismara yararlı yataqların istifadəsi haqqında məlumatlar əsasında onların istifadə səmərəliliyinin qiymətləndirilməsi və ehtiyatlarının dəqiqləşdirilməsi məqsədi ilə ekspedisiyaların təşkil olunması, ölkə ərazisinin, o cümlədən Qarabağ və Şərqi Zəngəzurun kompleks şəkildə yeni metodlarla - kosmik peyklərdən alınan şəkillər, PUA-lar ilə əldə edilən geoloji radar məlumatları və yerdəki ekspedisiyalar vasitəsilə öyrənilməsi üçün xüsusi proqramın hazırlanmasını zəruri hesab ediblər.

Məlum olduğu kimi, Xəzər dənizinin səviyyə tərəddüdləri ölkəmizin qarşısında duran ən ciddi prob-lemlərdən biridir. Yer Elmləri Bölməsinin elmi müəssisələrində bu istiqamətdə bir sıra tədqiqatların aparılması, o cümlədən Xəzərin ekosistemi, səviyyə tərəddüdlərinin dinamikası və təsirləri ilə bağlı kompleks tədqiqatların aparılması, dənizin səviyyə tərəddüdləri nəticəsində sahil xəttinin dəyişməsi-nin riyazi modellərinin yaradılması planlasdırılır.

Arasdırılması tövsiyyə olunan mühüm elmi məsələlər arasında Azərbaycanın su ehtiyatlarının və ölkənin dağ çaylarının sülb axımının müasir vəziyyətininin qiymətləndirilməsi, yeraltı su mənbələrinin axtarışı və qiymətləndirilməsinə müasir yanaşmaların islənməsi, su ehtiyatlarından səmərəli istifadə edilməsi kimi problemlər vardır.

Müzakirələrdən sonra "Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş yığıncaqda Prezident İlham Əliyevin çıxışından irəli gələn vəzifələrlə bağlı AMEA Yer Elmləri Bölməsinin təklifləri" təsdiq edilib.

İclasda, həmçinin Yer Elmləri Bölməsinin və bölmənin elmi müəssisələrinin 2025-ci ildəki elmi və elmi-təşkilati fəaliyyətinin yekunları və əldə olunmuş mühüm elmi nəticələr haqqında məlumatların toplanılması və ümumiləşdirilməsi ilə bağlı tədbirlər müəyyənləşdirilib.

# Naxçıvan Bölməsinin gələcək prioritetlərinin müzakirəsi



**Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Rəyasət Heyətinin növbəti iclası keçirilib.**

Tədbirdə Bölmənin sədri, akademik İsmayıl Hacıyev geniş məruzə ilə çıxış edərək gündəlikdə duran məsələləri diqqətə çatdırıb, bölmənin qarşıdakı illər üçün elmi inkişaf xəttinin müəyyənləşdirilməsi baxımından iclasın xüsusi əhəmiyyət daşıdığını vurğulayıb.

Akademik İsmayıl Hacıyev Azərbaycan Respublikasının Prezidentinin 3 noyabr 2025-ci il tarixində AMEA-nın 80 illik yubileyinə həsr edilmiş tədbirdə səsləndirdiyi mühüm prioritet istiqamətləri iclas iştirakçılarının diqqətinə çatdırıb. Bildirilib ki, dövlət başçısının elmin rəqəmsallaşması, innovasiya potensialının genişləndirilməsi, beynəlxalq elmi əməkdaşlığın gücləndirilməsi və fundamental araşdırmaların stimullaşdırılması ilə bağlı çağırışları AMEA Naxçıvan Bölməsi üçün yol xəritəsi rolunu oynayır.

Bu istiqamətdə bölmə tərəfindən hazırlanmış Tədbirlər Planı təqdim olunub. Sənəd geniş müzakirə edilib, söylənilən təkliflər nəzərə alınıb və yekunda yekdilliklə təsdiq edilib.

Aqrar elmlər üzrə fəlsəfə doktoru Orxan Bağırov bölmədə 2026-2030-cu illərdə aparılması nəzərdə tutulan elmi tədqiqat işləri barədə məlumat verib. O, həmçinin 2025-ci il üzrə elmi tədqiqatların yekunlarına dair təqdim ediləcək illik hesabatların hazırkı vəziyyəti haqqında danışıb.

Elm və təhsil şöbəsinin aparıcı mütəxəssisi Gülvira Abbasova AMEA prezidentinin 12 noyabr 2025-ci il tarixli 184 nömrəli sərəncamına uyğun olaraq bölmədə qış imtahan sessiyasının təşkili barədə məlumat verib. Bu il sessiyada iştirak edəcək nümayəndənin olmadığı qeyd edilib.

Ardınca bölmə əməkdaşlarının 2025-ci il üzrə doktoranturaya qəbulu məsələsi müzakirə olunub. Gülvira Abbasova fəlsəfə doktorluğu üzrə doktoranturaya qəbul olunmuş 5 doktorant haqqında ətraflı məlumatı təqdim edib. O, doktorantların elmi rəhbərləri, tədqiqat mövzuları və mövzuların müasir elmi diskursdakı aktuallığı barədə fikir bildirib.

İclasın sonunda filologiya üzrə fəlsəfə doktoru Rəşad Zülfüqarov cari məsələlərə dair çıxış edib. O bildirib ki, bölmə əməkdaşları tərəfindən hazırlanmış bir sıra elmi monoqrafiya və kitablar haqqında danışıb. Elmi dəyəri yüksək qiymətləndirilən bu əsərlərin nəşrinə tövsiyə verilməsi Azərbaycan elminin inkişafına növbəti töhfə kimi dəyərləndirilib.

# Azərbaycan dövlətçiliyi klassik qaynaqlarda

**AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun rəhbərliyi, institutun YAP ərazi təşkilatı və Qadınlar Şurasının birgə təşkilatçılığı ilə "2025-ci il - Konstitusiya və Suverenlik İli" çərçivəsində "Azərbaycan dövlətçiliyi klassik qaynaqlarda" adlı tədbir keçirilib.**



Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri giriş nitqi ilə institutun direktoru akademik Teymur Kərimli açıb. Çıxışında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsinin mühüm siyasi əhəmiyyət daşıdığını vurğulayan alim bu qərarın milli suverenliyimizin və hüquqi dəyərlərimizin təbliği baxımından tarixi bir addım olduğunu diqqətə çatdırıb. Bildirib ki, ölkə başçısının Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsinin 30 illiyi və dövlət müstəqilliyinin bərpasının 34-cü ildönümü ilə bağlı imzaladığı bu sənəd xalqımızın və dövlətimizin konstitusiya və suverenlik prinsiplərinə sadiqliyini bir daha təsdiq edir, ölkəmizin öz dəyərlərinə və mirasına, keçmişin nailiyyətlərinə əsaslanaraq qlobal çağırışlara cavab vermək əzmini nümayiş etdirir.

Tədbirdə institutun Çap kitablarının tədqiqi şöbəsinin müdiri tarix e.d., dosent Tahirə Həsənzadənin "Əlyazmalarımız Azərbaycan tarixi haqqında", Elmi katib tarix ü.f.d., dosent Aynur Hacıqədirlinin "Konstitusiya və suverenlik: Azərbaycan dövlətçiliyinin tarixi-hüquqi inkişafı", Türkdilli əlyazmaların tədqiqi şöbəsinin müdiri fil.ü.f.d., dosent Lamiyə Rəhimovanın "Konstitusiya, suverenlik və qadın hüquqları: hüquqi və sosial baxış", Biblioqrafiya şöbəsinin böyük laborantı Nəsibə Murtuzayevanın ""Konstitusiya və Suverenlik İli"nin müstəqil Azərbaycan tarixindəki izi" mövzularında məruzələri dinlənilib.

Türkdilli əlyazmaların tədqiqi şöbəsinin aparıcı elmi işçisi fil.ü.f.d., dosent Aybəniz Rəhimova və elmi işlər üzrə direktor müavini, Əlyazmaların və əski çap kitablarının tərcüməsi şöbəsinin müdiri fil.ü.f.d., dosent Əkrəm Bağırov məruzə ətrafında çıxışlarında ölkəmizin qədim və zəngin dövlətçilik tarixinə nəzər salıb, konstitusiya və suverenlik kimi mühüm amillərin Azərbaycanın müasir dövlət quruculuğunda ayrılmaz dəyərlər olaraq çıxış etdiyini vurğulayıblar.

Tədbir çərçivəsində institut Kitabxanasının "2025-ci il - Konstitusiya və Suverenlik İli" ilə bağlı hazırladığı video-slayd nümayiş olunub. İştirakçılar institutun Ekspozisiya zalında Əlyazmaların elmi-ekspozisiyası və təqdimi şöbəsinin mövzuya uyğun təşkil etdiyi sərgi ilə tanış olublar.

# Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyi münasibətilə təbrik və minnətdarlıq məktubları

## *Milli Məclisin deputatı, Mahmud Kaşqari adına Beynəlxalq Fondun prezidenti Cavanşir Feyziyevdən*



Hörmətli İsa müəllim!

Sizi və Sizin şəxsinizdə Azərbaycan Milli Elmlər Akademiyasının bütün kollektivini elm məbədimiz olan Azərbaycan Milli Elmlər Akademiyasının təsis edilməsinin 80 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edirəm.

AMEA yarandığı gündən etibarən ölkəmizin elmi-intellektual potensialının formalaşması və inkişafında müstəsna rol oynamış, milli elmin strateji istiqamətlərinin müəyyənləşdirilməsində, yeni elmi məktəblərin yaradılmasında, yüksək ixtisaslı kadrların hazırlanmasında və beynəlxalq elmi əlaqələrin genişləndirilməsində mühüm nailiyyətlər qazanmışdır. Bu gün Milli Elmlər Akademiyası dövlətimizin elm siyasətinin həyata keçirilməsində fəal iştirak edir, sosial-humanitar tədqiqatların, innovativ yanaşmaların və müasir elmi tendensiyaların inkişafına sanballı töhfələr verir.

Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyi həm elmi ictimaiyyətin, həm də bütövlükdə ölkə miqyasında elmin və biliyin təntənəsidir.

Əminəm ki, Sizin rəhbərliyiniz altında Akademiya gələcəkdə də milli elmimizin inkişafına, ölkəmizin elmi-mədəni tərəqqisinə və intellektual gücünün möhkəmlənməsinə mühüm töhfələr verəcəkdir.

Sizə möhkəm cansağlığı, elmi fəaliyyətinizdə yeni-yeni nailiyyətlər, ömrünü Azərbaycan elminin çiçəklənməsinə həsr edən AMEA-nın bütün əməkdaşlarına isə davamlı yaradıcılıq uğurları arzulayıram.

*Hörmətlə,*

**Cavanşir FEYZİYEV,**
**Milli Məclisin deputatı, Mahmud Kaşqari adına Beynəlxalq Fondun prezidenti"**
*3 noyabr 2025-ci il*

## *Ukrayna Ali Təhsil Milli Elmlər Akademiyasının akademiki Arif Quliyevdən*



"Hörmətli və əziz akademik İsa Əkbər oğlu,

"Ukrayna Azərbaycanlıları Alimlər Şurası" İctimai Təşkilatının üzvləri olan soydaşlarımız adından və şəxsən Sizi və Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) akademiklərini, alimləri və əməkdaşlarını AMEA-nın yaranmasının 80 illik yubileyi münasibətilə təbriklərimizi yetirməyi özümüzə böyük şərəf hesab edirik.

AMEA-nın 80 illik fəaliyyəti Azərbaycan elminin inkişaf tarixində möhtəşəm bir dövrü əhatə edir. Bu illər ərzində AMEA ölkəmizin və xaricdə yaşayan soydaşlarımızın intellektual potensialının formalaşmasında, elmi məktəblərin yaradılmasında, fundamental və tətbiqi tədqiqatların aparılmasında mühüm rol oynamış, xalqımızın mədəni, iqtisadi və texnoloji tərəqqisinə sanballı töhfələr vermişlər.

Əminik ki, AMEA bundan sonra da gənc tədqiqatçıların yetişdirilməsi, innovasiyaların tətbiqi və beynəlxalq elmi əməkdaşlıqların genişləndirilməsi istiqamətində böyük uğurlara imza atacaq.

Sizə möhkəm cansağlığı, yeni yaradıcılıq nailiyyətləri və Azərbaycan elminin inkişafı naminə daha böyük uğurlar arzulayırıq.

*Dərin hörmət və məhəbbətlə,*

***"Ukrayna Azərbaycanlıları Alimlər Şurası" İctimai Təşkilatının sədri, hüquq elmləri doktoru, professor, diplomat, Ukraynanın Əməkdar Təhsil İşçisi, Ukrayna Ali Təhsil Milli Elmlər Akademiyasının akademiki Arif Cəmil oğlu Quliyev"***
*3 noyabr 2025-ci il*

# İskəndəriyyə kitabxanasından Şərqşünaslıq İnstitutuna təşəkkür məktubu


مكتبة الإسكندرية
الإسكندرية في ٢٣ نوفمبر ٢٠٢٥
DL.11/37
D2/27/1
الدكتور/ إلنور مصطفايف
رئيس قسم مقارنة الأديان والرأي العام في معهد الدراسات الشرقية
أذربيجان
elnur.mustafayev83@mail.ru
تحية طيبة وبعد،
تهديكم مكتبة الإسكندرية أطيب التحية، ويسرني أن أتقدم لسيادتكم بوافر الشكر والعرفان على الإهداء المقدم إلى مكتبة الإسكندرية، والذي سيمثل إضافة قيمة لمجموعات مكتبة الإسكندرية.
ونحن إذ ننتهز هذه المناسبة لنقدم لكم خالص الشكر على الإهداء المقدم، يسعدنا دعوتكم إلى التواصل مع المكتبة والتعرف على مجموعاتها، والاستفادة من خدماتها وذلك عن طريق زيارة موقعها الإلكتروني المتاح عبر شبكة الإنترنت www.bibalex.org
وتفضلوا بقبول فائق الاحترام والتقدير،
مدير مكتبة الإسكندرية
أ.د. أحمد عبد الله زايد

**Misir Ərəb Respublikasının İskəndəriyyə kitabxanasının direktoru professor Əhməd Abdullah Zayed AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutuna təşəkkür məktubu ünvanlayıb.**

Kitabxananın rəhbəri ötən ay Şərqşünaslıq İnstitutunun Din və ictimai fikir şöbəsinin müdiri fəlsəfə üzrə fəlsəfə doktoru Elnur Mustafayevin Misirə elmi səfəri zamanı hədiyyə olunan kitablara görə institut rəhbərliyinə təşəkkür bildirib.

Professor Əhməd Abdullah Zayedin Elnur Mustafayevə ünvanladığı məktubda institut rəhbərliyinə və Elnur Mustafayevə müraciətlə bildirilir:

"İskəndəriyyə Kitabxanası elmi heyəti adından kitabxanaya təqdim etdiyiniz hədiyyələrə görə dərin təşəkkürümü bildirməkdən məmnunluq hissi duyduğumu ifadə etmək istəyirəm. Sizin dəyərli hədiyyələriniz - İskəndəriyyə kitabxanasına təqdim etdiyiniz kitablar - kitabxananın kolleksiyasının zənginləşməsinə mühüm töhfə verəcəkdir.

Bir daha fürsətdən istifadə edib, təqdim etdiyiniz dəyərli hədiyyələrə görə Sizə öz səmimi təşəkkürlərimizi bildiririk. Sizi kitabxana ilə əlaqəni davam etdirməyə, onun xidmətlərindən və imkanlarından yararlanmağa dəvət etməkdən şadıq".

Qeyd edək ki, İskəndəriyyə kitabxanasına akademik Gövhər Baxşəliyevanın ingilis və fars dillərində nəşr olunan "Nizami Gəncəvinin milli identikliyi", ingilis dilindən rus dilinə tərcümə etdiyi "Армянские инсинуации и исторические факты (вопросы и ответы)", Elnur Mustafayevin "Şuşanın maddi-mədəni irsi (epiqrafik abidələr əsasında)" kitabları, institutda 8 dildə çap olunmuş "Azərbaycanın mədəniyyət paytaxtı: Şuşa" adlı bukletin ərəb, ingilis və azərbaycan dillərində olan nüsxələri və s. kitablar hədiyyə edilib.

# Heydər Əliyev elmin, alimlərin və yazarların böyük himayədarı idi

## Ümummilli lider Heydər Əliyevin unudulmaz xatirəsinə

**Milli Elmlər Akademiyasının 80 illik yubileyində Prezident İlham Əliyevin iştirakı və nitqi dövlətimizin başçısının elmə, təhsilə və ziyalılara göstərdiyi dərin diqqət və hörmətin bariz göstəricisidir. Dövlət başçısı çıxışında ulu öndər Heydər Əliyevin dövlətçilik zəkası, uzaqgörən siyasəti və milli düşüncəyə əsaslanan yanaşması nəticəsində ölkədə elmin inkişafı üçün möhkəm ideoloji, maddi və institusional baza formalaşdığını vurğuladı.**



Ümummilli liderin elmə və alimlərə tarixi qayğı və diqqətinin bu gün də davam etdiyini, yaşadığını, yeni formalarla zənginləşdiyini diqqətə çatdıran Prezident qeyd etdi ki, Ulu öndər Heydər Əliyev hər zaman Azərbaycan alimlərini dəstəkləmək üçün öz səylərini əsirgəmirdi.

Dövlət başçısının çıxışındakı məqamlar həmin dövrü gözlərim önündə canlandırdı. Mən o xoşbəxt insanlardanam ki, Ulu öndərin hakimiyyətə gəldiyi ilk gündən son günədək onun səmərəli fəaliyyətini və gördüyü möhtəşəm işləri izləmək mənə də qismət olub. Odur ki, o unudulmaz günlərin şahidi kimi xatirələrimi bölüşmək istəyirəm.

Göz önünə ilk olaraq 1982-ci il gəlir. Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyasının Siyasi Bürosunun üzvü seçilmiş, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi çox yüksək vəzifəyə təyin olunmuşdu. Uzun müddət ölkəmizə rəhbərlik edən (1969-1982) bu böyük şəxsiyyətlə Orconikidze adına klubda (indiki Şəhriyar) vida yığıncağı keçirilirdi. Hamı ağlayırdı. Bu, ümumxalq məhəbbətinin təzahürü idi. Ayrılanda Heydər Əliyevin də gözlərindən yaş gəlirdi. Xalqın Heydər Əliyevə məhəbbəti heç vaxt səngimədi. Bu, sonsuz məhəbbətin nəticəsi idi ki, o, Moskvada işdən ayrılıb vətənə dönəndə xalqın istəyi ilə yenidən hakimiyyətə gəldi və xalqı düçar olduğu bəladan xilas etdi.

Azərbaycan tarixində bir epoxa olan, xalqın tarixi müqəddəratında həlledici rol oynayan, adı tariximizə qızıl hərflərlə yazılan Heydər Əliyev milli-mənəvi dəyərlərimizin qorunmasına və təbliğinə xüsusi qayğı göstərirdi.

Yaradan ona elə bir fitri istedad vermişdi ki, o, hər sahəni mükəmməl bilirdi. Əvvəlcə bu sahələrdən birinə - folklora münasibətindən söz açmaq istəyirəm. Ulu öndərin folklor haqqında heyrətamiz bələdliklə mülahizələr yürütməsi, məsələnin kökünə nüfuz etməsi, onun fitri istedadından və milli-mənəvi dəyərlərimizə tükənməz məhəbbətindən qaynaqlanırdı.

Əminliklə deyə bilərik ki, şifahi və yazılı ədəbiyyatımızın başlanğıcı və tükənməz enerji mənbəyi "Kitabi-Dədə Qorqud" o dahi şəxsiyyətin sayəsində layiqli yerini tutdu. Yaşlı nəsil unutmayıb ki, keçən əsrin 40-50-ci illərində "Kitabi-Dədə Qorqud" yasaq edilmişdi. Həmid Araslı və Məmmədhüseyn Təhmasib akademik V.Bartoldun ruscaya çevirdiyi "Kniqa moeqo Deda Korkuda" kitabını 1950-ci ildə Bakıda Elmlər Akademiyası nəşriyyatında çap etdirdiklərinə, Əbdüləzəl Dəmirçizadə uşaqlar üçün "Dədə Qorqud" mövzuları əsasında "Qaraca Çoban" pyesi yazdığına, Səməd Vurğun şair fəhmi ilə bu ölməz abidənin işıqlı gələcəyini görərək onu "Gələcəyin toy-bayramı" şeirində tərənnüm etdiyinə görə, başları çox bəlalar çəkdi. Əvvəlcə partiya yığıncağında kəskin tənqid olundular, 1951-ci ilin may ayında isə Yazıçılar İttifaqının iclasında "səhvlərini" etiraf etsələr də, az qala onları pantürkist damğası ilə cəzalandıracaqdılar.

Ulu öndər "Kitabi-Dədə Qorqud"a yazdığı "Ön söz"də göstərir ki, o dövrdə elə bir iclas, elə bir qurultay, elə bir konfrans olmazdı ki, orada "Dədə Qorqud" tənqid olunmasın. Eposa qadağa damğası vurulmuşdu.

Eposun elmi-ədəbi fikir dövriyyəsinə daxil olmasında Heydər Əliyevin xidmətləri ölçüyəgəlməzdir. Tədqiqatçıların qeyd etdiyi kimi, Ulu öndərimiz hakimiyyətə yenidən qayıtdıqdan sonra milli düşüncənin bütün sahələrindən daha çox ədəbiyyatda coşqun "Kitabi-Dədə Qorqud" dövrü başladı. Xalq şairi Zəlimxan Yaqub deyirdi ki, "Manas"ın 1000 illik yubileyində Ulu öndərimiz də iştirak edirdi.

Təntənəli yığıncaqdan sonra bizə ayrılmış çadırlara yenicə gəlmişdik ki, dedilər, Heydər Əliyev hamınızı öz çadırına çağırır. Getdik. Onun ilk sözü bu oldu: "Kitabi-Dədə Qorqud"un başlanğıc cümləsi necədir? Şübhəmiz yox idi ki, Ulu öndər onu bizdən də yaxşı bilirdi. Bununla belə, dedik: "Rəsul Əleyhissəlamın zamanına yaqın Bayat boyundan Qorqud Ata derlər, bir ər qopdu". Sonra məlum oldu ki, öndərimiz o söhbəti təsadüfi salmamışdı.

Xalq yazıçısı Anar deyir ki, Ulu öndər ona göstəriş veribmiş ki, Bakıya qayıdan kimi "Kitabi-Dədə Qorqud" haqqında ətraflı məlumat hazırlasın. Anar elə də etmişdi.

Beləliklə, Heydər Əliyev "Kitabi-Dədə Qorqud" eposunun 1300 illiyinin beynəlxalq səviyyədə keçirilməsi barədə 20 aprel 1997-ci il tarixli fərman imzaladı. Dövlət səviyyəsində tədbirlər planı tutuldu. Alimlərin 3 illik fəaliyyətinin nəticəsində ikicildlik "Kitabi-Dədə Qorqud" ensiklopediyası meydana gəldi.

Dövlət başçısı bu möhtəşəm eposu "Ön söz"də yüksək dəyərləndirərək yazırdı: "Dünya qorqudşünaslığı "Kitabi-Dədə Qorqud"un istər etnik, mənşə, istər tarixi-coğrafi, ərazi, istərsə də dil və məfkurə baxımından Azərbaycan xalqına mənsub olması fikrini qəti şəkildə təsdiq edir. "Kitabi-Dədə Qorqud"un Azərbaycan tarixi üçün ən böyük, ən əsas və ən birinci xidməti bundan ibarətdir..."

Onu da deyim ki, "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyinin ümumdünya miqyasında keçirilməsi barədə UNESCO-nun qərarı vardı. 2000-ci ildə keçirilən yubiley tədbirində Heydər Əliyev "Milli varlığımızın mötəbər qaynağı" adlı geniş məruzə ilə çıxış etdi. "Kitabi-Dədə Qorqud"un Azərbaycan xalqına məxsus olmasının təsdiqi Ulu öndərimizin ən böyük xidmətlərindən biri idi.

Unudulmaz şəxsiyyət Heydər Əliyevin əvəzsiz xidmətlərindən biri də Novruz bayramının dövlət səviyyəsində bayram edilməsinə rəvac verməsi idi. 1979-cu ildə İçərişəhərin Qoşa Qala Qapısı meydanında möhtəşəm Novruz bayramı şənlikləri keçirildi. İnsan axını hər yanı bürümüşdü. Sanki dəniz dalğalanırdı. Gözlənilmədən əlamətdar bir hadisə baş verdi. Ecazkar bir musiqi, ecazkar sözlər, məlahətli səs hamını ovsunladı. Müğənni Nazpəri Dostəliyeva "Naxçıvanı" aşıq havası üstündə Azaflı Mikayılın "Ağarmayın, ay saçlarım, amandır" mahnısını oxuyurdu. Hamı donub yerində qalmışdı.

Elə həmin vaxt Ulu öndərimiz, İlham Əliyev və dövlət rəhbərləri meydandan keçib gedirdi. Onlar da dayanıb qəlblərə od salan mahnını axıra kimi dinlədilər. Ümummilli lider milli muğamı da, aşıq musiqisini də, klassik musiqini də çox sevirdi. Yaxşı yadımdadır, Ulu öndərin təşəbbüsü ilə hər cümə günü Filarmoniyada "Klassik musiqi axşamı" keçirilirdi. Çox vaxt konsertdə şəxsən özü də iştirak edir.

Heydər Əliyev Aşıq sənətini yüksək qiymətləndirirdi. Təsadüfi deyildir ki, "Aşıqlar Birliyi" və "Aşıq Pəri məclisi" onun xeyir-duası ilə yaranıb. Aşıq Ələsgərin, Aşıq Alının, Aşıq Şəmşirin yubileylərinin keçirilməsi barədə sərəncamlar imzalamışdı. Aşıq Ələsgərin 150 illiyinin Moskvada "Qurultaylar sarayı"nda keçirilməsi əlamətdar hadisə idi. Aşığın poeziyası Vladimir Qafarov tərəfindən rus dilinə tərcümə edilərək kitab halında çap olundu və rus oxucularına təqdim edildi.

Böyük rəhbər görkəmli şəxsiyyətlərin yubileylərinin keçirilməsini zəruri sayırdı. Xüsusi vurğulayırdı ki, yubileylərin keçirilməsi bir tərəfdən onların xalq qarşısında xidmətlərinə verilən qiymətdir, digər tərəfdən xalqın zənginliyini nümayiş etdirməkdir. Ümumxalq məhəbbəti qazanan, hamının intizarla gözlədiyi "Ozan" və "Bulaq" verilişləri də Heydər Əliyevin ölkəyə rəhbərliyi dövründə yaranmışdı. "Ozan" televiziya verilişinin Dövlət mükafatına təqdim edilməsi çox mətləblərdən xəbər verirdi.

Ulu öndərin folklorumuza olan dərin məhəbbətinin nəticəsi, əvvəlcə "Folklor Elm Mərkəzi"nin (1994), sonralar isə analoqu olmayan "Folklor İnstitutu"nun yaradılması (2003) oldu. Folklor İnstitutunda "Dədə Qorqud" şöbəsi yarandı və "Dədə Qorqud" jurnalı nəşrə başladı. İndi institutda "Aşıq yaradıcılığı", "Mərasim folkloru", "Türk xalqları", "Folklor və yazılı ədəbiyyat", "Cənubi Azərbaycan folkloru" və başqa şöbələr fəaliyyət göstərir və öndərimizin həmişə diqqət mərkəzində olan milli-mənəvi dəyərlərimizin qorunması və təbliği yolunda müstəsna işlər görülür.

Heç vaxt unudulmaz, şirin xatirətək yadımdan çıxmayan bir hadisədən də söz açmaq istəyirəm. Ulu öndər Moskvada işdən çıxıb vətənə dönmüşdü. Hamı onu görmək arzusu ilə yaşayırdı...

Filarmoniyada yazıçıların qurultayının keçirildiyi yığıncağın başlamasına az qalmış təəssüflə ürəyimdən keçirdim: "Bu qurultayımız Heydər Əliyevsiz keçirəcəyimiz yeganə qurultay olacaq". Elə bu vaxt kimsə arxadan qışqırdı: "Heydər Əliyev gəlir!" Hamı ayağa qalxıb sürəkli alqışlarla həmişə yazıçıların dayağı olmuş bu görkəmli şəxsiyyəti layiq olduğu səviyyədə qarşıladı. Nəhayət Heydər Əliyev əlini qaldıraraq sakitləşməyi xahiş etdi. Yazıçılar Birliyinin sədri Anar Ulu öndəri Rəyasət Heyətinə dəvət etdi. Heydər Əliyev: "Anar, mən oradan zala çox baxmışam. Bu dəfə zaldan Rəyasət Heyətinə baxmaq istəyirəm" - deyib zalda əyləşdi.

Şair Məmməd Aslan başda olmaqla bir qrup dayanmadan qışqırırdı: "Heydər Əliyev Rəyasət Heyətinə dəvət olunsun!" Anar müəllim dedi ki, Məmməd, sakit olun! Qərar Heydər Əliyevindir.

Qurultayın gedişində son aylar Füzulinin mavzoleyinin sökülməsi və qəbrin düzəldilməsi barədə mətbuatda yer alan söz-söhbətə də toxunuldu. Bəziləri tələb edirdi ki, Füzulinin nəşi Azərbaycana gətirilsin. Onlar dövləti fəaliyyətsizlikdə günahlandırırdı. Heydər Əliyev müdaxilə etməli oldu: "Əvvəla, bu, çox çətin məsələdir. Məlumdur ki, Füzuli İraqda anadan olub, orada yaşayıb-yaradıb, orada da dünyasını dəyişib. O, İraq şairi kimi tanınır. Bu işə dövlətin qarışması münasib deyil. Siz yazıçılar, ziyalılar, alimlər İraq dövlətinə müraciət edə bilərsiniz...

Müraciət forması üzərində qızğın mübahisələr başladı. Hər ağızdan bir avaz çıxırdı. Mübahisəyə Heydər Əliyev yenidən qarışmalı oldu: "Bu işi Teymur Əliyev (şair Teymur Elçin) yaxşı bilir. O buradadırmı?" Teymur Əliyev ədəb-ərkanla ayağa qalxıb: "Bəli, Heydər Əliyeviç, burdayam!"-dedi. Teymur müəllim elə bir müraciət forması irəli sürdü ki, kimsə etiraz etmədi. Qurultay bitəndə Heydər Əliyevi uzun sürən sürəkli alqışlarla yola saldıq. Mənə görə bu, ən yaxşı qədirşünaslıq əlaməti idi...

Vaxt keçdi. Çox hadisələr baş verdi. Xalqın tələbi ilə Heydər Əliyev ölkəmizdə yenidən hakimiyyətə gəldi.

Qarşıdan dahi Azərbaycan şairi Füzulinin 500 illik yubileyi gəlirdi. Şairin yubileyinin ölkəmizdə və İraqda keçirilməsinə böyük hazırlıq gedirdi.

Təəssüf ki, 1994-cü ildə Füzulinin yubileyi ərəfəsində ABŞ başda olmaqla Qərb dövlətləri İraq Respublikası nefti milliləşdirdiyinə görə başqa ərəb ölkələrinə görk olsun deyə onu cəzalandırmaq qərarına gəlmişdi. Ölkə elə blokadaya alınmışdı ki, İraq başqa ölkələrə hava-su kimi lazım olan neftini də sata bilmirdi. Ölkə ağır maliyyə çətinlikləri ilə üzləşmişdi. Bu səbəbdən bəzi ölkələrdə, eləcə də Azərbaycanda səfirliyin bağlanması gündəmdə idi.

İraqın Azərbaycandakı səfiri, əslən İraq türkmanlarından olan Fərrux Davud Salman məni çağırıb dedi ki, lazımi yerlərə xəbər verin. Vaxt itirmədən baş nazirin müavini Elçin Əfəndiyevin yanına getdim. Elçin müəllim çox məyus oldu və dedi ki, zəngimi gözlə. Üç gündən sonra Elçin müəllim məni çağırıb dedi ki, dövlət bu işə qarışa bilməz. Məsləhət görüldü ki, ziyalılarımız İraq Prezidentinə məktub ünvanlasın. Filarmoniyada Yazıçıların qurultayında Füzulinin qəbrinin Azərbaycana gətirilməsi müzakirə olunanda Heydər Əliyevin dediyi sözlər göz önünə gəldi: "Dövlətin bu işə qarışması münasib deyil. Siz yazıçılar, ziyalılar, alimlər İraq dövlətinə müraciət edə bilərsiniz".

Aydın oldu ki, məsləhət Ulu öndərindir.

Səfirlik və ziyalılarımızla əlaqə uzun müddət İraqda işlədiyimə görə mənə həvalə olundu.

22 aprel 1994-cü il tarixdə İraq prezidentinə məktub ünvanladıq. Bu çox gərəkli məktubu Azərbaycanın hüdudları xaricində də yaxşı tanınan Mikayıl Abdullayev, Anar, Ziya Bünyadov, Bəxtiyar Vahabzadə, Yaşar Qarayev, Tofiq Quliyev, Vasim Məmmədəliyev, Bəkir Nəbiyev, Qəzənfər Paşayev, Nurəddin Rzayev, Sabir Rüstəmxanlı, Eldar Salayev, Nəbi Xəzri və başqaları imzaladılar.

Maraqlıdır ki, İraqın səfiri, Fərrux Davud Salman məktuba imza atan ziyalılarımız haqqında İraqa ətraflı məlumat göndərdi. Ulu öndərimizin uzaqgörənliyi öz işini gördü. İraq səfirliyi Azərbaycanda fəaliyyətini davam etdirdi.

Ulu öndər dəyirmanda un, tabaqda çörək, xəzinədə pul çox az olan bir vaxtda, 1994-cü ilin sentyabrında 128 nəfərdən ibarət nümayəndə heyətini Füzulinin 500 illik yubileyində iştirak etmək üçün avtobuslarla İraqa getməyinə göstəriş verdi. İraq tərəfi blokada şəraitində olsa da, nümayəndə heyətini layiqincə qəbul etdi. Bizə hər cür şərait yaradıldı.

Bu təkcə Füzulinin yaradıcılığına verilən yüksək qiymət deyildi. Bu həm də onun Azərbaycan dilində ölməz əsərlər yazan dahi şairə ilham verən İraq türkmanlarına dərin ehtiram əlaməti idi. Ulu öndər yaxşı bilirdi ki, onlar soydaşlarımızdır. İraqda yaşayan soydaşlarımızın görkəmli nümayəndəsi, öndərimizin dostu İhsan Doğramacının xahişi ilə İraq türkmanlarının İstanbulda çıxan "Qardaşlıq" dərgisinə verdiyi müsahibədə bu münasibətlə demişdir: "Tarixi araşdıranda gördüm ki, Güney Azərbaycan, Quzey Azərbaycan və İraq türkmanları bir bütövün parçalarıdır" ("Qardaşlıq", №8, İstanbul, 2000, s.4).

Unuda bilmədiyim başqa bir fakt. Ulu öndərin milli-mənəvi dəyərlərimizə verdiyi yüksək qiymətin bariz nümunəsidir. 1994-cü il noyabrın 2-də Ankaraya Füzulinin yubileyinə Heydər Əliyevin təyyarəsində getdik.

Görəsən bunu hansı dövlət başçısı edərdi?

Ulu öndərlə bağlı başqa bir əlamətdar hadisəni də yada salmaq istərdim. Yollar açılandan sonra həcc ziyarətinə ilk gedən Heydər Əliyev və təyyarəsində apardığı ziyalılarımız, alimlərimiz, yazıçı və şairlərimiz oldu.

*(davamı 7-ci səhifədə)*

# Heydər Əliyev elmin, alimlərin və yazarların böyük himayədarı idi

*Ümummilli lider Heydər Əliyevin unudulmaz xatirəsinə*

*(əvvəli 6-cı səhifədə)*

Hər dəfə Ümummilli lider Heydər Əliyev haqqında düşünəndə iftixar hissi keçirirəm ki, mən də bu nadir tarixi şəxsiyyətin soydaşıyam. Ulu öndərin ölkəyə rəhbərliyinin hər iki dövründə onun titanik fəaliyyətini izləmək, adı və əməlləri Azərbaycan tarixinə qızıl hərflərlə yazılan bu dahi insanın xalqımız qarşısında, dövlətçiliyimizin dirçəldilməsi və möhkəmləndirilməsində misilsiz xidmətlərinin şahidi olmaq kimi xoşbəxtliyi mən də yaşamışam.

Dahi Füzulinin 530 illiyi ilə əlaqədar möhtərəm Prezidentimiz İlham Əliyevin verdiyi 25 yanvar 2024-cü il tarixli Sərəncam Ulu öndərimiz Heydər Əliyevin kursunun əbədiliyinin göstəricisidir.

Möhtərəm Prezidentimiz İlham Əliyevin xüsusi sərəncamı ilə 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsinin də böyük əhəmiyyəti var idi. Sərəncam bizə imkan verdi ki, ağır vaxtlarda ölkəmizin taleyinə cavabdehlik missiyasını şərəflə, sədaqətlə yerinə yetirən müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, həyat yolu ölkəmizin çağdaş siyasi tarixi ilə ortaqlaşmış Heydər Əliyevin gördüyü möhtəşəm işlərin miqyasına bir daha nəzər salaq.

İlboyu davam edən yubiley ab-havasında ziyalılar, qələm sahibləri, elm adamları, Ulu öndərin sədaqətli silahdaşları, rəhbərliyi altında işləmiş ağsaqqallar, bir daha bu dahi şəxsiyyət haqqında qədirşünaslıq əlaməti olaraq söz demək, məqalələr, kitablar, monoqrafiyalar yazmaq imkanı əldə etdilər. Bir daha aydın oldu: Heydər Əliyev elə bir sahilsiz umman, elə bir möhtəşəm abidədir ki, onun miqyası, çəkisi, önəmi zaman keçdikcə daha yaxından görünəcək, daha dərindən dərk ediləcək.

Azərbaycan Milli Elmlər Akademiyasında Ulu öndərin 100 illiyinə həsr olunmuş Elm günündə söylənənlər zamanın Heydər Əliyev dühasına verdiyi qiymətin yeni bir səhifəsi kimi yaddaşlarda qaldı. Məruzə ilə çıxış edən AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, akademik Akif Əlizadə, akademik Eldar Ömərov, Respublika Ağsaqqallar Şurasının sədri Eldar Quliyev, Milli Məclisin Mədəniyyət komitəsinin sədri Fazil Mustafa, Elm və Təhsil Nazirliyinin şöbə müdiri Turxan Süleyman məhəbbətlə Ulu öndərin gördüyü misilsiz işlərdən, Prezident İlham Əliyevin Ümummilli liderin kursunu sədaqətlə davam etdirməsinin uğurlu nəticələrindən danışdılar.

Toy-bayrama çevrilən Elm günündə bir çox alimlərimizin, xüsusən də akademiklərin "Heydər Əliyev - 100" medalı və başqa nominasiyalar üzrə təltif olunması mərasimə ikiqat təntənə gətirdi.

Desəm ki, "Heydər Əliyev - 100" medalını almaq arzusunda deyildim, səmimi olmaram.

Mən əsərlərinə ən çox istinad edilən alim kimi "İstinadda rekord" diplomu ilə təltif olundum. "Heydər Əliyev İli"ndə mükafat almağıma sevinirəm.

Yeri gəlmişkən bir xatirəmi də danışmaq istərdim. Az adam bilir ki, Ulu öndər mənim də taleyimdə müstəsna rol oynayıb. Dillər İnstitutunun ingilis-Azərbaycan dilləri fakültəsində IV kurs tələbəsi olarkən ingilis və rus dillərini bildiyimə görə xaricdə tərcüməçi işləmək üçün sənədlərimi hazırlamaq məsləhət görülmüşdü. İkinci Dünya müharibəsi vaxtı atam neytral dövlət olan İsveçrəyə gedib çıxmışdı. O, əsir düşməmişdi, bununla belə, sovet quruluşunun belə hallara qarşı amansızlığını göz önünə gətirəndə şansımın az olduğunu düşünürdüm.

On iki il Ulu öndərin rəhbərliyi altında işləmiş general və gözəl yazıçı Yasif Nəsirli şahidlik edir ki, Heydər Əliyev mənim sənədlərimi diqqətlə oxuyub imzalayıb və deyib: "Gəncdir, qoy getsin, inkişaf etsin".

Ümummilli liderin şəxsiyyətinə və gördüyü möhtəşəm işlərə dərin hörmət və sonsuz məhəbbətimi əvvəllər də, "Heydər Əliyev İli"ndə də etdiyim məruzələr, yazdığım çoxsaylı məqalələr və Ulu öndər epoxasına, İlham Əliyev erasına həsr etdiyim, akademik İsa Həbibbəylinin "Xilaskardan xilaskara" adlı ön sözü ilə çap olunan "Xilaskarlar" kitabımda göstərməyə çalışmışam. Mətbuatda yüksək qiymətləndirilən, Milli Kitabxanada təqdimatı keçirilən "Xilaskarlar" kitabım 2022-ci ildə Tehranda "Naqus" nəşriyyatında da çap edildi.

"Heydər Əliyev İli"ndə Ulu öndər haqqında Tovuz rayon ziyalıları və fəalları qarşısında, AMEA-nın Ədəbiyyat İnstitutunda, BDU-nun Ümummilli liderə həsr olunan yığıncağında, BDU-nun İnformasiya və sənət menecmenti fakültəsində, Azərbaycan Universitetində, Məhkəmə Ekspertiza Mərkəzində, Milli Kitabxanada, Yazıçılar Birliyində və başqa mötəbər müəssisələrdə məruzələrlə çıxış etmişəm. AMEA-da akademiyanın müxbir üzvü, professor Misir Mərdanovun "Heydər Əliyev: Xalqa həsr olunmuş ömür" kitabının təqdimatında mən məruzə etmişəm.

"Heydər Əliyev İli"ndə Yazıçılar Birliyinin hazırladığı, Azərbaycanda və Türkiyədə çap olunan "Ədəbi ömrün yüz ili" kitabında "Azərbaycan reallığında Heydər Əliyev epoxası" məqaləm çap olunub. Bundan əlavə, professor Misir Mərdanovun "Heydər Əliyev: Xalqa həsr olunmuş ömür" kitabı haqqında mətbuatda "İbrətamiz və bənzərsiz əsər" adlı məqaləm, "Heydər Əliyev və İlham Əliyev Nostradamusun görücülüyündə" adlı yazım işıq üzü görüb. Ümummilli lider haqqında yazılarımı indi də davam etdirirəm.

Ulu öndərlə bağlı xatirələrim çoxdur. Əsasən də doğma kəndim Düzqırıxlıda (Tovuz rayonu) kənd klubunda keçən əsrin 70-ci illərində Ulu öndərin 3 dəfə (1975, 1977, 1980) respublika üzümçülərinin zona müşavirəsini keçirərkən baş verən maraqlı hadisələr barədə "Xilaskarlar" kitabımda ətraflı söhbət açmışam. Onu da deyim ki, Ulu öndər yeni bir üzüm sortunu bizim kənddə Xəlfəqulu oğlu Abbasın sahəsində əkmişdi.

Ümummilli lider Abbas kişinin bol məhsullu üzüm sahəsində olarkən demişdi: "Ağsaqqal, biz Bakıdan gəlmişik, nəyə ehtiyacın var, arzun nədir?" Abbas kişi demişdi: "Qadan alım, heç nəyə ehtiyacım yoxdur. Arzum isə odur ki, gedək qonağım ol, beş-altı toğlum var, birini kəsim. Siz gedəndən sonra qürrələnim ki, böyük bir adam qonağım olub". Heydər Əliyev ürəkdən gülərək söyləmişdi: "Bizim böyük olduğumuzu haradan bildin?". Cavab belə olmuşdu: "Qadan alım, bunu bilməyə nə var ki? Yaşım 70-dən yuxarıdır, ömrümdə bir kişinin başına bu qədər adam yığışdığını görməmişəm". Ulu öndər yenə ürəkdən gülmüş və demişdi: "İndi tələsirik. Çalışaram, gələn dəfə qonağın olum".

İbrətamiz bir məsələdən də danışmaq istərdim. Ulu öndər Moskvada yüksək vəzifədən kənarlaşandan sonra onun portretlərini hər yandan yığışdırırdılar. Kiçik qardaşım Ələsgər müəllim Ulu öndərin portretlərini kəndin iki orta məktəbindən, sovxoz və kənd soveti idarələrindən, xəstəxanadan, sənət məktəbindən, Heydər Əliyevin Respublika Üzümçülərinin Zona Müşavirəsini keçirdiyi klubdan yığaraq evinə gətirmişdi. Portretləri bir otağa yığmışdı. Özü də o otaqda yatırdı. Maraqlıdır ki, Heydər Əliyev xalqın istəyi ilə yenidən hakimiyyətə gələndə həmin portretlər əvvəlki yerini bəzədi. Onu da deyim ki, nəslimizdə Ulu öndərə məhəbbət sahilsiz ümmana bənzəyir. Ələsgər müəllimin qızı, mərhum deputat Qənirə Paşayeva belə bir mühitdə böyümüş, Heydər Əliyev məktəbinin müdavimi olmuşdu.

Mənim də başıma heç vaxt unutmayacağım bir hadisə gəlib. BDU-nun Tarix fakültəsində dərs deyirdim. Ağır vaxtlar idi. Ölkə çalxalanırdı. Milli-mənəvi dəyərlər tapdanırdı. Bir gün 2 gənc tələbəm - Müşfiq və Elnur sual verdilər: "Müəllim, ölkədəki vəziyyətdən nicat yolunu nədə görürsünüz?". Mən fikirləşmədən dedim: "Ölkəni bu vəziyyətdən yalnız Heydər Əliyev çıxara bilər". O vaxt Ulu öndər hələ Naxçıvanda idi.

Dünyanın gedişini dərk edə bilməyən bu iki gənc, bu qənaətimə görə tələbələrin yanında məni təhqir etdilər. Ünvanıma nalayiq sözlər yağdırdılar. Düz bir ay dərsimi pozdular. Təəssüf hissi keçirdim ki, tarix fakültəsində oxuyan bu iki gənc tarixin ibrət dərslərindən xəbərsiz idilər.

Görkəmli alim dostum Abbas Zamanov mənə təsəlli verərək deyirdi: "Qəzənfər, məni erməni dığalarına görə işdən və partiyadan çıxartdılar, mən sınmadım. Səni o boyda kişiyə görə təhqir ediblər, ürəyinə salma. Görərsən, Heydər Əliyev hakimiyyətə yenidən qayıdacaq. O gənclər səhvlərini başa düşəcəklər". Abbas müəllimin dediyi kimi də oldu. Sonralar Müşfiq gəlib üzr istədi. Sevindim ki, Müşfiq Heydər Əliyevin böyüklüyünü dərk edib.

Heydər Əliyevin hər sözü, hər kəlamı bir nümunə məktəbi, örnək idi. Xalq şairi Qabil deyirdi ki, Heydər Əliyev hakimiyyətə gələndən sonra həyata keçirdiyi ilk layihələrdən biri Bibiheybət qəsəbəsi yaxınlığında Şıx çimərliyinin üst tərəfində Park saldırmaq oldu. Bütün təşkilatlar işə cəlb olunmuşdu. İməclikdə Heydər Əliyev şəxsən iştirak edirdi. Yazıçıların sahəsinə gəlib bizimlə söhbət etdi. Mən onu ilk dəfə idi görürdüm. Azərbaycanca elə səlis, elə mənalı danışırdı ki, heyran oldum və dedim: "Heydər müəllim, siz azərbaycanca nə gözəl danışırsız".

Heydər Əliyev məni tanıyırmış. Dedi: "Qabil, sən desən ki, mən ingiliscə, almanca gözəl danışıram, təəccüblənməzdim. Ana dilini hamı yaxşı bilməlidir. Xalqın milli kimliyinin, mənsubiyyətinin göstəricisi ana dilidir".

Yeridir deyim ki, Ulu öndərin böyük arzularından biri, bəlkə də birincisi ərazi bütövlüyümüzün, tarixi ədalətin, milli ləyaqətimizin bərpası idi.

Sevindirici haldır ki, Ümummilli liderin arzusunu özü qədər inandığı möhtərəm Prezidentimiz İlham Əliyev ləyaqətlə yerinə yetirdi.

Yaradanın Azərbaycan xalqına bəxş etdiyi Ulu öndər elə bir zirvədir ki, aralandıqca möhtəşəmliyini, əzəmətini daha aydın görmək olur. Ulu öndərin elmimizə, elm adamlarına, dilimizə, incəsənət nümayəndələrinə, yazarlara göstərdiyi müstəsna diqqət və qayğı hər bir ziyalının yoluna işıq tutub və bu işıq hələ uzun illər xalqımızın, o cümlədən elm adamlarımızın yolunu aydınladacaq.

**Qəzənfər PAŞAYEV**
**Əməkdar elm xadimi, professor**



**Tanınmış kimyaçı akim Mübariz Məcid oğlu Əhmədov 1945-ci il noyabr ayının 4-də Azərbaycan Respublikası Qazax rayonunun II Şıxlı kəndində anadan olmuşdur. Ziyalı bir nəslin nümayəndəsi olan Mübariz Əhmədovun təhsilə marağın yaranmasında və bir şəxsiyyət kimi yetişməsində ailəsinin böyük rolu olmuşdur. Onun atası, Əhmədov Məcid Əhməd oğlu Respublikanın "Əməkdar müəllim"i olmuşdur. Mübariz Əhmədov 1962-ci ildə Azərbaycan Dövlət Universitetinin kimya fakültəsinə daxil olmuşdur. Demək olar ki, AMEA-nın müxbir üzvü Mübariz Əhmədovun "Mineral maddələrin texnologiyası" laboratoriyasına başçılıq etməsi onun alın yazısı idi. O, 1964-cü ildə elə bu laboratoriyada işə başlamışdır. 1970-ci ildə Azərbaycan Dövlət Universitetini bitirdikdən sonra M.Əhmədov Azərbaycan Elmlər Akademiyasının Qeyri-üzvi və Fiziki Kimya İnstitutunda (indiki Kataliz və Qeyri-üzvi Kimya İnstitutu) Qeyri-üzvi maddələrin texnologiyası ixtisası üzrə əyani aspiranturaya daxil olmuşdur.**

# Kimya elminə həsr olunmuş ömür

Yaradıcılıq fəaliyyəti və yüksək zəhmətkeşliyi sayəsində o, 1974-cü ildə akademik H.Şahtaxtinskinin rəhbərliyi ilə "Konversiya olunmuş təbii qazın tərkibinin kükürd-4 oksidin reduksiya prosesinə təsiri və katalitik konversiya və reduksiya proseslərinin bir reaktorda aparılması" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. Laboratoriya rəhbəri akademik H.Şahtaxtinskinin müavini olaraq M.Əhmədov öz elmi fəaliyyətini metallurgiya sənayesinin kükürd tərkibli tullantı qazlarından elementar kükürdün alınması prosesinin emalı sahəsində davam etdirmişdir.

1986-cı ildə Mübariz Əhmədov Azərbaycan EA-nın Qeyri-üzvi və Fiziki Kimya İnstitutunun "Kükürd tərkibli filizlərin kompleks emalı" laboratoriyasının rəhbəri vəzifəsinə təsdiq edilir.

İllər keçir və M.Əhmədov Azərbaycanın mineral maddələrin kompleks emalının kimya və texnologiyasının geniş tədqiqatlarının əsasında öz elmi məktəbini yaradır.

O, 1990-cı ildə "Yüksəkqatılıqlı kükürd qazından elementar kükürdün alınmasının fiziki-kimyəvi əsasları və emalının texnologiyası" mövzusunda Leninqrad Texnologiya İnstitutunda doktorluq dissertasiyasını müdafiə edir və texnika elmləri doktoru elmi dərəcəsinə layiq görülür. 1992-ci ildə M.Əhmədova "Qeyri-üzvi maddələrin texnologiyası" ixtisası üzrə professor elmi adı verilir.

Mübariz Əhmədov 1991-1996-cı illərdə Qeyri-üzvi və Fiziki Kimya İnstitutunun, sonra - 2002-2014-cü illərdə AMEA-nın akad. M.Nağıyev adına Kimya Problemləri İnstitutunun elmi işlər üzrə direktor müavini, 1996-cı ildən 2002-ci ilədək keçmiş Qeyri-üzvi və Fiziki Kimya İnstitutunun direktor vəzifəsinin icraçısı olmuşdur.

O, 2014-cü ildən 2018-ci ilə kimi AMEA-nın akademik M.Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun "Mineral xammalın kompleks emalı" şöbəsinin və "Qeyri-filiz xammalın emalı" laboratoriyasının rəhbəri vəzifəsində işləmişdir.

M.Əhmədovun elmi fəaliyyətinin əsas istiqamətləri və əldə etdiyi nailiyyətləri qısa şəkildə belə göstərmək olar: ətraf mühitin mühafizəsi baxımından mühüm əhəmiyyət kəsb edən metallurgiya və qaz sənayesində alınan kükürd-tərkibli qazın utilizasiyası; metanın sintez qaza su buxarı və karbon qazı ilə metal-seolit katalizatorlarının işlənib hazırlanması üçün metallanması; Azərbaycan Respublikasının filiz və qeyri-filiz yataqlarının kompleks emalı texnologiyasının yaradılması. Onun elmi fəaliyyətində Respublikamızda çox zəngin təbii ehtiyata malik, tərkibində 40-a qədər qiymətli element olan Filizçay polimetal sulfid filizinin kompleks emalının nəzəri və təcrübi tədqiqi əsas yer tutur. Onun tərəfindən Filizçay filizinin və selektiv konsentratlarının əsas komponentlərinin (Pb, Cu, Zn, S) və onları müşayiət edən qiymətli metalların (Ag, Au, Bi, Ga, İn, Cd və s.) çıxarılmasını təmin edən kompleks emalının bir neçə variantda texnoloji sxemləri təklif olunmuş, eyni zamanda çətinzənginləşən Filizçay polimetal kolçedan filizinin birbaşa kompleks emalının (oksigen və ya kükürd anhidridi ilə avtoklav həllolma; xloridlərin qovulma üsulu və s.), eləcə də flotasiya üsulu ilə filizin zənginləşdirilməsindən alınan selektiv konsentratların (qurğuşun, mis-sink) kompleks emalının fiziki-kimyəvi və texnoloji əsasları işlənib hazırlanmışdır.

Azərbaycan Respublikası üçün böyük əhəmiyyət kəsb edən mineral xammalın (alunit, gil, dolomit süxurları və s.) kompleks emalının texnologiyasının yaradılması və müvafiq olaraq qiymətli məhsulların ($Al_2O_3$, $Al_2(SO_4)_3$, $Na_2SO_4$, $K_2SO_4$, $MgO$, $MgCl_2$, $CaO$, $CaCl_2$) alınması üsulları işlənib hazırlanmışdır. Son illər M.Əhmədovun elmi fəaliyyətində Respublikamızda zəngin ehtiyata malik və tərkibində kifayət qədər strateji metal - alüminium olan kaolin gillərinin emalı və bir sıra sənaye tullantılarından qiymətli metalların çıxarılması istiqamətində aparılan tədqiqatlar əsas yer tutmuşdur. Azərbaycan Respublikasının kalsittərkibli süxurlarının-təbaşir, əhəng daşı və mərmərin hidrofoblaşmasına həsr edilmiş tədqiqatlar praktiki əhəmiyyət daşıyır. Mövzuya aid B.S.Sərdarov, Y.X.Xəlilov, M.M.Əhmədov və M.İ.Xəlilovanın "Keramik divar materiallarının texnologiyası" (Bakı, 2000, -194 s. Biblioqr.:14ad.) adlı dərs vəsaiti nəşr edilmişdir.

Ümumiyyətlə, M.Əhmədov tərəfindən aparılan elmi işlər istər nəzəri, istərsə də təcrübi baxımdan böyük əhəmiyyətə malik olmaqla yanaşı, bilavasitə mineral sərvətlərin kompleks emalına yönəldilmiş və Azərbaycan Respublikasının iqtisadiyyatının inkişafı üçün böyük əhəmiyyət kəsb etmişdir.

M.Əhmədov 400-dən artıq elmi əsərin müəllifidir. Bunlardan 200-ə qədəri yaxın və uzaq xaricdə (Rusiya, Ukrayna, Gürcüstan, Qazaxıstan, İran, Almaniya, ABŞ, Türkiyə, Çexiya, Avstriyada) nəşr olunan mötəbər elmi jurnallarda öz əksini tapmışdır.

Onun elmi əsərlərinə bir çox Azərbaycan və xarici ölkə alimlərinin işlərində istinad edilmişdir, rəhbərliyi altında 21 elmlər namizədi (fəlsəfə elmləri doktoru), 1 elmlər doktoru hazırlanmışdır. Mübariz Əhmədov bir çox ölkələrdə (Almaniya, Fransa, Türkiyə, İran, Çexiya, Bolqarıstan və MDB ölkələrində) Azərbaycanı, elm xadimi olaraq, elmi simpozium və konfranslarda təmsil etmişdir.

M.Əhmədovun xidmətləri Dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. Kimya elminin inkişafı sahəsində xidmətlərini nəzərə alaraq o, SSRİ Nazirlər Kabinetinin və Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin qərarları ilə "Fəxri fərman"larla təltif edilmişdir. Eyni zamanda o, SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanları ilə, "1941-1945-ci illər Böyük Vətən müharibəsi Qələbəsinin 20 illik "Yubiley medalı" və "Əmək veteranı" medalı ilə də təltif olunmuşdur.

Uzun illər səmərəli elmi fəaliyyətinə görə AMEA-nın müxbir-üzvü, t.e.d., professor Mübariz Məcid oğlu Əhmədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 14 dekabr 2005-ci il tarixli Sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif edilmişdir. AMEA-nın müxbir üzvü Mübariz Məcid oğlu Əhmədov 2018-ci il noyabrın 25-də ömrünün 73-cü ilində vəfat etmişdir. Alimin əziz xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.

**Dilqəm TAĞIYEV**
**akademik**
**Arif HEYDƏROV**
**professor**

# ELMİMİZİN ZƏFƏR YOLU

**Xalq həmişə öz ziyalıları, öz mədəniyyəti, öz elmi ilə tanınır. Azərbaycan xalqının minillik tarixində elmə, biliyə və maarifə olan dərin hörmət onun milli kimliyinin ayrılmaz hissəsi olmuşdur. Bu ənənənin müasir daşıyıcısı isə səksən ildir ki, xalqımızın intellektual simasını formalaşdıran, onun elmi düşüncə mərkəzinə çevrilən Azərbaycan Milli Elmlər Akademiyasıdır!**



Səksən il bir ömür qədər uzun, bir millətin elmi düşüncəsinin formalaşması baxımından isə qısa, lakin çox dəyərli bir dövrdür. Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyi sadəcə bir yubiley deyil; bu, Azərbaycan elminin keçdiyi çətin, lakin şərəfli yolun, milli zəka tariximizin böyük mərhələsinin təntənəsidir. Elmimizin bu zəfər yolu xalqımızın düşüncə mədəniyyətinin, intellektual potensialının və yaradıcı ruhunun parlaq təzahürüdür.

## Elm məbədi kimi doğulan Akademiya

Azərbaycan Milli Elmlər Akademiyasının əsası 1945-ci ildə, müharibədən yeni çıxmış, lakin gələcəyə böyük ümidlə baxan bir ölkədə qoyuldu. O illərdə elm və təhsil sahəsində müstəqil institutların yaranması ölkənin gələcəyi üçün böyük strateji addım idi. O dövrdən etibarən Azərbaycan elminin inkişafında mühüm mərhələ başlandı. Akademiyanın əsas məqsədi yalnız elmi araşdırmalar aparmaq deyildi; o, həm də gənc alimlər nəsli yetişdirmək, xalqın milli sərvətlərini, təbii ehtiyatlarını, dilini, tarixini və mədəniyyətini elmi əsaslarla öyrənmək missiyasını öz üzərinə götürdü. İlk illərdən etibarən Azərbaycan alimləri təbiət elmləri, humanitar və ictimai elmlər sahəsində tədqiqatlara başladılar, elmin maddi bazasının formalaşmasına, gənc mütəxəssislərin yetişdirilməsinə böyük əmək sərf etdilər.

Akademiyanın ilk rəhbərlərindən olan akademik Yusif Məmmədəliyev, Mirəli Qaşqay, Həsən Əliyev, İmam Mustafayev kimi görkəmli alimlər elmin inkişafına əvəzsiz töhfələr verdilər. Onların tədqiqatları nəticəsində bir çox digər elm sahələri üzrə fundamental nailiyyətlər əldə edildi.

Zaman keçdikcə Azərbaycan Milli Elmlər Akademiyası ölkənin ən böyük elmi mərkəzinə çevrildi, bir çox sahələrdə elmi məktəblər formalaşdı, yüzlərlə alim yetişdi, minlərlə elmi əsər və monoqrafiya nəşr olundu. Müxtəlif elm sahələrində aparılan tədqiqatlar həm ölkə daxilində, həm də beynəlxalq miqyasda tanındı.

## Elm və dövlətçilik bir məqsədə xidmət edir

Elm və dövlətçilik bir-birini tamamlayan iki sütundur. Azərbaycan tarixinin bütün mərhələlərində elmi inkişaf dövlət siyasətinin əsas istiqamətlərindən biri olub. Xüsusilə müstəqillik illərində bu prinsip yeni məzmun kəsb edib.

1990-cı illər Azərbaycan üçün həm sınaq, həm də yenidən doğuluş dövrü idi. Azərbaycan müstəqillik qazandıqdan sonra elmin inkişafına yeni bir baxış formalaşdı. Ulu Öndər Heydər Əliyev milli elmin dirçəlişinə xüsusi önəm verərək onun dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilməsini təmin etdi. O, dəfələrlə qeyd edirdi ki, ”Elmin inkişafı olmadan ölkənin tərəqqisi mümkün deyil.” Ulu Öndərin ”Elm millətin gələcəyidir” fikri Azərbaycan Milli Elmlər Akademiyasının fəaliyyətinin əsas istiqamətini müəyyənləşdirdi. Bu strateji baxış nəticəsində elmi potensialın qorunması, alimlərin sosial müdafiəsinin gücləndirilməsi və gənc kadrların elmi fəaliyyətə cəlbi istiqamətində mühüm addımlar atıldı.

Bu strateji xətt bu gün Prezident İlham Əliyev tərəfindən ardıcıl və müasir yanaşmalarla davam etdirilir. Dövlət başçısı elmin inkişafını təkcə intellektual prioritet deyil, həm də iqtisadi və texnoloji tərəqqinin əsas dayağı kimi qiymətləndirir. Onun rəhbərliyi ilə elmi idarəetmənin təkmilləşdirilməsi, tədqiqatların səmərəliliyinin artırılması və innovativ yanaşmaların tətbiqi istiqamətində ardıcıl islahatlar həyata keçirilir.

Onun sərəncam və qərarları ilə elmi müəssisələrin maddi-texniki bazası müasirləşdirilmiş, laboratoriyalar yenilənmiş, beynəlxalq elmi əlaqələr gücləndirilmişdir. Akademiyanın binaları, tədqiqat mərkəzləri və elmi infrastrukturu dünya standartlarına uyğun səviyyəyə çatdırılmış, elm və təhsilin inteqrasiyası istiqamətində mühüm addımlar atılmışdır. Prezident İlham Əliyev dəfələrlə qeyd edib ki, ”ölkənin gələcəyi bilikli, innovativ və elmə əsaslanan inkişaf modelindən keçir.” Bu baxış Azərbaycan Milli Elmlər Akademiyasının fəaliyyətində də öz əksini tapır. Akademiyanın bir çox institutları bu gün artıq yalnız fundamental elmlərlə deyil, həm də iqtisadiyyatın real sektoruna tətbiq olunan elmi nəticələrlə çıxış edirlər. Eyni zamanda, dövlətin dəstəyi ilə gənc alimlər üçün qrant proqramları, doktorantura və beynəlxalq layihələrdə iştirak imkanları genişləndirilib. Elmin cəmiyyət həyatına inteqrasiyası, elmi nəticələrin istehsalat və texnologiyada tətbiqi istiqamətində geniş dövlət proqramları həyata keçirilir.

Bu gün Azərbaycan Milli Elmlər Akademiyasının modernləşməsi, elmi idarəçiliyin səmərəliliyinin artırılması və beynəlxalq elmi məkanla sıx əməkdaşlığın qurulması Prezident İlham Əliyevin müəyyən etdiyi milli elmi siyasətin əsas tərkib hissəsidir. Bu siyasət bir tərəfdən milli elmi irsin qorunmasını təmin edir, digər tərəfdən isə Azərbaycan elmini XXI əsrin qlobal elmi sisteminə inteqrasiya edir.

Azərbaycan elminin dövlət səviyyəsində inkişafı yalnız keçmişin davamı deyil, həm də gələcəyə inamla atılan addımdır. Prezident İlham Əliyevin elmə verdiyi strateji dəstək sayəsində bu gün Azərbaycan Milli Elmlər Akademiyası ölkənin intellektual potensialının mühüm dayağına, regionun ən nüfuzlu elmi mərkəzlərindən birinə çevrilib.

Azərbaycan Milli Elmlər Akademiyası bu gün yalnız klassik elmi tədqiqatların deyil, həm də yeni texnoloji ideyaların mərkəzidir. Burada süni intellekt, nanomateriallar, alternativ enerji, iqlim dəyişmələri və biomüxtəliflik kimi müasir istiqamətlərdə araşdırmalar aparılır. Akademiya alimlərinin əldə etdiyi nəticələr təkcə nəzəri deyil, həm də praktik əhəmiyyət daşıyır, iqtisadiyyatın, ekologiyanın və sosial sahələrin inkişafına real töhfə verir.

Elm yalnız texnologiya və innovasiya demək deyil - o, həm də milli kimliyin qorunması, mədəni irsin elmi əsaslarla öyrənilməsidir. Azərbaycan Milli Elmlər Akademiyasının uzun illər ərzində yaratdığı elmi məktəblər Azərbaycan tarixinin, dilinin, ədəbiyyatının və mədəniyyətinin tədqiqi baxımından əvəzsiz rol oynamışdır.

## Gənclik və elm - gələcəyə körpü

Azərbaycan Milli Elmlər Akademiyasının ən böyük nailiyyətlərindən biri də elmə gənc nəslin marağını artırmaq, yeni elmi düşüncə sahiblərini formalaşdırmaqdır. Bu istiqamətdə həyata keçirilən layihələr, təqaüd proqramları və beynəlxalq əməkdaşlıq təşəbbüsləri gənc tədqiqatçıların elmi mühitə inteqrasiyasını sürətləndirir. Doktorantura proqramları, beynəlxalq konfranslar və təcrübə mübadilələri gənclərə dünya elmi ilə birgə addımlamaq imkanı yaradır. Akademiyada bu gün yüzlərlə gənc alim çalışır, doktorantura və dissertantura proqramlarında iştirak edir, beynəlxalq elmi layihələrə qoşulur. Onların elmi axtarışları Azərbaycan elminin sabahını müəyyənləşdirir. Bu, elmimizin gələcəyi üçün ən böyük sərmayədir.

Gənc tədqiqatçılar üçün Gənc Alim və Mütəxəssislər Şurası fəaliyyət göstərir, onlar beynəlxalq elmi jurnallarda məqalələr dərc etdirir, beynəlxalq konfranslarda çıxış edirlər. Bu, elmi potensialın davamlılığını təmin edən ən mühüm amildir.

## 80 ilin düşüncəsi və gələcəyə baxış

Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyi sadəcə tarix deyil; bu, elmə sadiqliyin, zəhmətin və biliklə formalaşan gələcəyin rəmzidir. Akademiyanın keçdiyi yol sübut edir ki, elm yalnız laboratoriya divarları arasında deyil, cəmiyyətin bütün təbəqələrində yaşayır.

Bu gün AMEA-nın simasında biz həm keçmişin zəngin elmi irsini, həm də gələcəyə inamla baxan yeni nəsli görürük. Burada formalaşan hər bir elmi nəticə, yazılan hər bir monoqrafiya və müdafiə olunan hər bir dissertasiya ölkəmizin tərəqqisinə, xalqımızın rifahına və beynəlxalq nüfuzuna xidmət edir.

Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyi təkcə keçmişə baxış deyil, həm də gələcəyə yönələn bir çağırışdır. Bu yubiley elmə, düşüncəyə və yaradıcı əməyə verilən dəyərin təntənəsidir.

Elm - insanın, xalqın və dövlətin tərəqqisinə aparan ən etibarlı yoldur. Azərbaycan elmi bu yolda səksən illik şərəfli yol keçib və gələcəyə doğru daha inamla addımlayır.

Bu əlamətdar yubiley münasibətilə bütün alimlərimizi, tədqiqatçılarımızı və elmsevərləri səmimi qəlbdən təbrik edirik. Əminik ki, Azərbaycan elmi daim yenilənəcək, inkişaf edəcək və gələcəyə aparan ən parlaq yol olaraq qalacaq!

**Nüşabə ARZUMANOVA**
**ARETN Polimer Materialları İnstitutunun elmi katibi,**
**kimya üzrə fəlsəfə doktoru, dosent**

# TURKKON-un nümayəndələri ilə görüş

**AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunda TURKKON - Turan Dövlətləri Birləşmiş Konfederasiyasının nümayəndə heyəti ilə görüş keçirilib.**



Dilçilik İnstitutunun direktoru professor Nadir Məmmədli və institutun elmi katibi filologiya elmləri doktoru Aynel Məşədiyeva TURKKON-un xarici təşkilatlanma üzrə sədr müavini Mesut Gülaçtının rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb, fikir mübadiləsi aparıblar.

